

# "BBC World News"

telekanalında "Azərbaycanı kəşf et - gələcəyə gedən yol" adlı videoçarx yayımlanır

3

# "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır"



Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsini qəbul edib 2

Səs

№ 191 (6391) 20 oktyabr 2021-ci il. Qiymәti 40 qəpik

## "Azərbaycan Avropa İttifaqına (Aİ) üzv ölkələrlə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlıdır"

*Baş nazir Əli Əsədov Slovakiyanın Xarici və Avropa işləri naziri İvan Korçok ilə görüşüb*

3



# Bizim Mehriban!

Azərbaycanın 1-ci xanımı, 1-ci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təqdimata ehtiyacı yoxdur. Buna baxmayaraq, biz bu yazıda 1-ci xanımın fəaliyyətindən bəzi məqamlara toxunmaq istəyirik.

4



## "Qalib Azərbaycan Silahlı Qüvvələri bundan sonra da xalqımızın, dövlətimizin və Müzəffər Ali Baş Komandanımızın etimadını şərəflə doğruldacaqdır"



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyevin SİA-ya verdiyi müsahibəni təqdim edirik: 7

## Bakı Zooloji Parkından maraqlı görüntülər - VİDEOREPORTAJ

Oktyabrın 7-də IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidənqurmadan sonra Bakı Zooloji Parkı qapılarını...




12

## Tahir Budaqov: "Hasilat Sənayesində Şəffaflıq" Portalı statistika potensialının artırılması sahəsində görülən işlərin növbəti bir nümunəsidir

9






## Zəngilanın işğaldan azad olunmasından bir il ötür

9

Bir il əvvəl Azərbaycan ordusu qızğın döyüşlərdə haqq savaşında torpaqlarımızın işğaldan azad olunması uğrunda...



## Azərbaycanda boşanma sayı niyə artır?

16

Bu il Azərbaycanda qeydə alınan nikah və boşanma hallarının sayı açıqlanıb. Dövlət Statistika Komitəsinin...

# "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır"

## Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişaf perspektivləri müzakirə edildi, Avropa İttifaqının Azərbaycanla əməkdaşlığın inkişafına önəm verdiyi vurğulandı, Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğu bildirildi.**

Söhbət zamanı bu ilin iyul ayında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfərinə toxunularaq səfər zamanı Prezident İlham Əliyevlə Şarl Mişel arasında keçirilən görüşün Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına mühüm töhfə verdiyi qeyd olundu.

Görüşdə Avropa İttifaqının regionda sabitliyin və sülhün möhkəmləndirilməsi, etimad mühitinin formalaşdırılması işinə töhfə verməyə hazır olduğu vurğulandı. Söhbət zamanı, həmçinin Şərq Tərəfdaşlığının qarşıdan gələn Zirvə toplantısı barədə fikir mübadiləsi aparıldı.





# Slovakiya Azərbaycanla iqtisadi əlaqələrin inkişafına böyük önəm verir

## *Prezident İlham Əliyev Slovakiyanın xarici işlər və Avropa nazirini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçoku qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Slovakiya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi, siyasi təmasların fəal şəkildə olduğu bildirildi. Bu baxımdan qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu.***

Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçok ölkəsinin Azərbaycanı iqtisadi əməkdaşlıq üçün yaxşı imkanlara malik olan bir ölkə kimi qəbul etdiyini vurğuladı və bildirdi ki, Slovakiya tərəfi Azərbaycanla iqtisadi əlaqələrin inkişafı istiqamətində səylərin Prezident İlham Əliyev tərəfindən dəstəklənməsinə böyük önəm verir. Qonaq iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsinin əhəmiyyətinə toxundu. İvan Korçok Slovakiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində quruculuq və yenidənqurma layihələrində yaxından iştirak etməkdə maraqlı olduqlarını bildirdi.

Qonaq qeyd etdi ki, Slovakiya dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə sadiqdir və bu əsasda ölkəsi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq və ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı verib. Trend xəbər verir ki, başsağlığı mətnində deyilir: "Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

"Baykar" şirkətinin İdarə Heyətinin sədri Özdemir Bayraktarın vəfatı xəbəri məni olduqca kədərləndirdi. Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, ailənizin üzvlərinə və yaxınlarınıza səbir diləyir, dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin!".

***

Azərbaycan Prezidenti İlham Əliyev Valeh Ələsgərovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Valeh Feyruz oğlu Ələsgərov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev M.A.Əliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam verib. Trend xəbər verir ki, Sərəncamla Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Məhərrəm Abış oğlu Əliyev "Şöhrət" ordeni ilə təltif edilir.

# Ukraynanın xəbər portallarında Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümü ilə bağlı məqalə dərc olunub







**Ukraynanın xəbər portallarında Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümünə həsr olunmuş məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Ukraynadakı səfirliyi tərəfindən hazırlanan və "forbes.net.ua" və "Presa Ukraini" xəbər portallarında dərc edilən məqalədə ölkəmizin 30 ildə əldə etdiyi iqtisadi uğurları şərh edilir. Qeyd edilib ki, Azərbaycanda müstəqilliyin ilk illərindəki xaos, iqtisadiyyatın zəifləməsi, milli sərvətlərin oğurlanması dərin siyasi və sosial-iqtisadi böhrana səbəb olub. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin dövlət başçısı olaraq gəlişi ilə ölkədə yeni bir siyasi kurs formalaşmağa başlayıb. Heydər Əliyevin əsas nailiyyətləri vətəndaş müharibəsi təhlükəsinin qarşısını almaq və iqtisadi sahə də daxil olmaqla müstəqil siyasət aparmaq idi. Bu fəaliyyətin əsas istiqamətləri müxtəlif mülkiyyət formalarına əsaslanan iqtisadi sistemin yaradılması, bazar münasibətlərinə keçid və ölkənin dünya iqtisadiyyatına inteqrasiyası idi. Heydər Əliyevin siyasəti nəticəsində ölkənin sosial-iqtisadi inkişafında və dünya iqtisadi sisteminə inteqrasiyasında böyük uğurlar əldə edildi. Ən böyük nailiyyət, bu müddət ərzində görülən gərgin iş nəticəsində ölkənin əsaslı olaraq yeni - inkişaf və islahatların Azərbaycan modelinə sahib olmasıdır. Onun siyasətini isə davamçısı Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün Azərbaycan enerji, nəqliyyat sahəsində bir sıra nüfuzlu beynəlxalq layihələrin müəllifidir. Azərbaycan 30 ildə bütün xarici ölkələrlə ərazi və suverenliyə hörmətlə yanaşan uğurlu xarici siyasət yeridib.

Məqalədə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi uğurlar barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, işğaldan azad olunan ərazilərdə qısa bir zamanda böyük iqtisadi layihələr həyata keçirilir. Azərbaycan ərazilərini azad etdikdən sonra bölgədə yeni bir reallıq ortaya çıxıb. Qısa müddətdə azad edilmiş ərazilərin bərpası və inkişafı konsepsiyası hazırlanıb. Səkkiz ay ərzində Füzuli şəhərində bir beynəlxalq hava limanı inşa edilib. Daha iki hava limanının tikintisi planlaşdırılıb və dörd sənaye parkının yaradılması işlərinə başlanılıb. Hazırda 13 istiqamətdə magistral yollar, elektrik xətləri çəkilir. Ağdamın dirçəlişinin baş planı təsdiq edilib və yenidənqurma işlərinə başlanılıb. Bir sıra qəsəbələrdə "ağıllı kənd"lərin yaradılması layihələri həyata keçirilir. Azərbaycan bölgənin yenidən qurulmasını sürətləndirməyi hədəfləyir.

Otuz il ərzində Azərbaycan və Ukrayna münasibətləri barədə məqamlar yer alan məqalədə, həmçinin vurğulanıb ki, bu gün iki ölkə arasında strateji müttəfiqlik münasibətləri mövcuddur.

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 19-da Slovakiya Respublikasının Xarici və Avropa işləri naziri İvan Korçok ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında fəal siyasi dialoqun aparıldığı vurğulanıb. Azərbaycanın Avropa İttifaqına (Aİ) üzv ölkələrlə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğu bildirilib.

Azərbaycan ilə Slovakiya arasında iqtisadi-ticari, enerji, nəqliyyat, tranzit, investisiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

Baş nazir Ə.Əsədov Azərbaycandan keçən nəqliyyat dəhlizlərinin, o cümlədən də Zəngəzur dəhlizinin Slovakiya və Aİ üçün maraqlı olacağını vurğulayıb, rəqəmsal və yaşıl iqtisadiyyat sahələrində əməkdaşlıq imkanlarının olduğunu qeyd edib.

Qeyd edilib ki, Azərbaycan Slovakiya da daxil olmaqla dost ölkələrin şirkətlərinin işğaldan azad edilmiş torpaqların bərpasında iştirakında maraqlıdır.

Xarici və Avropa işləri naziri İvan Korçok Slovakiyanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini, yaxşı siyasi münasibətləri iqtisadi sahəyə də şamil etməyin vacibliyini vurğulayıb.

Sonda Azərbaycan Hökuməti ilə Slovakiya Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş imzalandı. Sazişi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Slovakiya Respublikasının Xarici və Avropa işləri naziri İvan Korçok imzaladılar. Sazişə əsasən, ikitərəfli iqtisadi əməkdaşlığın əlaqələndirilməsi və təşviq edilməsi məqsədilə İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Slovakiya Birgə İşçi Qrupun yaradılması nəzərdə tutulub.



# ”Azərbaycan Avropa İttifaqına (Aİ) üzv ölkələrlə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlıdır”

*Baş nazir Əli Əsədov Slovakiyanın Xarici və Avropa işləri naziri İvan Korçok ilə görüşüb*

---






# “BBC World News”

## telekanalında ”Azərbaycanı kəşf et - gələcəyə gedən yol” adlı videoçarx yayımlanır





**“BBC World News” televiziya kanalında ”Azərbaycanı kəşf et - gələcəyə gedən yol” adlı videoçarx yayımlanır.**

AZƏRTAC xəbər verir ki, 200-dən çox ölkədə yayımlanan, 450 milyon izləyicisi olan ”BBC World News” telekanalında nümayiş etdirilən videoçarxda zəngin mədəni irsə malik olan, keçmişlə gələcəyin astanasında yerləşən Azərbaycanın tarixi və müasir memarlıq abidələrindən, füsunkar təbiətindən, nəqliyyat və texnoloji imkanlarından, ölkəmizdəki sürətli inkişafdan bəhs olunur.

Qeyd edilir ki, gündən-günə daha da müasirləşən Bakı şəhərində yeni göydələnlər, ticarət mərkəzləri, ən müasir biznes mərkəzləri və otellər tikilməkdədir. Videoçarxda, həmçinin ölkəmizin dəniz qapıları olan, eyni zamanda, Bakı şəhərini beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzinin qovşağına çevirən Beynəlxalq Dəniz Ticarət Limanının görüntüləri də nümayiş etdirilir.

Videoda Bakının tarixi və müasirliyini, dini tolerantlığını, inkişafını, dəniz, hava və yol infrastrukturunu özündə ehtiva edən müxtəlif görüntülər təqdim olunur. Eyni zamanda, videoçarxda Şuşanın gözəl mənzərəli dağlarına, görkəmli sənət xadimləri - Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstlərinə, Şəki Xan Sarayına dair kadrlar da yer alıb.

Təqdim olunan videoçarxda UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş İçərişəhərin ərazisində yerləşən və Bakının rəmzi hesab olunan XII əsrin tarixi memarlıq abidəsi olan Qız qalası, Şirvanşahlar Sarayı kompleksi, dünyaca məşhur memar Zaha Hadidin layihəsi əsasında inşa olunan Heydər Əliyev Mərkəzi, ”Crystal Hall, ”Külək-alov” konsepsiyası əsasında tikilən ”SOCAR Tower”, səthi tamamilə LED ekranlarla örtülən ”Alov qüllələri”, ”Park Bulvar” və ”Dəniz Mall” ticarət mərkəzləri, Heydər Əliyev Beynəlxalq Aeroportu, habelə inşası davam etdirilən nəhəng tikililər də nümayiş olunur.

Videomaterialda hündür minarələrinin, günbəzlərinin xüsusi gözəllik verdiyi Heydər məscidinin və digər dini məbədlərin görüntüləri təqdim edilir, Azərbaycanda təkcə məscidlərin deyil, kilsə və sinaqoqların da qorunub saxlanıldığı vurğulanır.

Videoçarxda müasir texnologiyaların Azərbaycana yeni fürsətlər gətirdiyi qeyd olunur, ölkənin nəqliyyat və texnoloji imkanları nümayiş etdirilir. Həmçinin ölkədə yaşıl enerjidən istifadə olunması, ölkənin külək və günəş enerjisi ilə çalışan stansiyaları barədə izləyicilərə məlumat verilir, Qobustanın yaşıl enerji üzrə hibrid elektrik stansiyasına aid kadrlar nümayiş etdirilir.

”BBC World News”un təqdim etdiyi material ölkəmizin tarixi, milli-mədəni irsi, habelə müasirliyi və dinamik inkişafı ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması, turistlərin və investorların ölkəyə cəlb edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

# Bizim Mehriban!

**Azərbaycanın 1-ci xanımı, 1-ci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təqdimata ehtiyacı yoxdur. Buna baxmayaraq, biz bu yazıda 1-ci xanımın fəaliyyətindən bəzi məqamlara toxunmaq istəyirik.**



## Birinci xanımın qısa bioqrafiyası

Mehriban Əliyeva Bakıda ziyalı ailəsində anadan olub. Atası Milli Elmlər Akademiyasının akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor, Milli Aviasiya Akademiyasının rektoru Arif Mir Cəlal oğlu Paşayev, anası şərqşünas alim, filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru olmuş, ərəb ədəbiyyatı sahəsində mütəxəssis Aida Nəsir qızı İmanquliyevadır.

Mehriban Əliyeva 1982-ci ildə Bakıda 23 saylı orta məktəbi qızıl medalla bitirib, Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə işi fakültəsinə daxil olub. İkinci kursdan təhsilini İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunda davam etdirib, 1988-ci ildə bu institutu əlaçı diplomu ilə bitirib. 1988-92-ci illərdə Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib.

Mehriban xanım Heydər Əliyev Fonduna onun açılmasından- 10 may 2004-cü ildən bu günədək rəhbərlik edir. Fondun işinin əsas istiqaməti ən müxtəlif sahələrdə humanitar fəaliyyətdir. Bura valideyn himayəsindən məhrum uşaqlara kömək, uşaq evlərinin, internat-məktəblərin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması da daxildir. Fond təhsil, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirir.

Uğurlu fəaliyyətinə görə, 2017-ci ildə vitse-prezident vəzifəsinə təyin olunub və hazırda bu vəzifədə çalışır.

Fond Azərbaycanın hüdudlarından kənarda da uğurlu layihələr həyata keçirir, ümumbəşəri mədəniyyət abidələrinin bərpasında da iştirak edir. Bu fəaliyyətlərinə görə, bir sıra ölkələrin və beynəlxalq təşkilatlarının orden və mükafatlarına layiq görülüb.

## Humanizmin canlı mücəssəməsi

Humanizm, mərhəmət, vətənpərvərlik, xeyirxahlıq hisslərinə söykənən fəaliyyətilə cəmiyyətdə böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı qarşısına qoyduğu başlıca məqsəd Azərbaycanda bu sahənin müasir dövrün əsas tələblərinə uyğun səviyyəyə yüksəldilməsi, potensial kadrların yetişdirilməsindən ibarətdir.

Fondun prezidenti Mehriban xanım Əliyeva 2005-ci ilin əvvəlində paytaxtda internat məktəbləri və uşaq evlərində olduqdan sonra "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"nın hazırlanıb həyata keçirilməsini təmin edib.

Respublikamızdakı uşaq evləri və internat məktəblərindəki mövcud problemlərin həll olunmasına yönəldilən proqram fondun təhsil sahəsindəki fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilib. İlkin mərhələdə aparılmış monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn 4 mühüm istiqamət: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilib.

Heydər Əliyev Fondunun səhiyyə sahəsində ən çox əks-səda doğuran layihələrindən biri məhz "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi olub. Layihə çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar 2004-2006-cı illər ərzində müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və şpris-qələmlərlə təmin ediliblər.

"Talassemiyasız həyat naminə" layihəsi isə bu xəstəliyin geniş yayıldığı ölkələrdən hesab olunan Azərbaycanda böyük rəğbətlə qarşılanıb. Bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, bu istiqamətdə əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə xüsusi diqqət yetirilib.

Heydər Əliyev Fondu təhsilin, səhiyyənin, mədəniyyətin, incəsənətin, idmanın inkişafına xidmət edən konkret layihələrlə yanaşı, regional inkişaf tədbirlərinə də yaxından dəstək verir.

## Tanrı bağışlayanları sevir

Azərbaycanın birinci xanımı üzərinə götürdüyü xoşməramlı missiya ilə həm də insan hüquqlarının qorunmasına, vətəndaş







cəmiyyəti ideyalarının cəmiyyətdə daha da möhkəmlənməsinə, habelə cəza siyasətinin humanistləşdirilməsi prosesinə öz töhfələrini verir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə hələ 2007-ci ilin may ayında parlamentə təqdim etdiyi amnistiya aktı layihəsi ilə bağlı Mehriban xanım deyib: "Bu təşəbbüsü irəli sürərkən mən hesab edirdim ki, səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər.

*Ardı Səh. 5*

# Bizim Mehriban!

Əvvəli Səh. 4

Ağır cinayət törətməyən insanları bağışlayaraq biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk. Mən əminəm ki, cəmiyyətdə bütün ağır, çətin problemləri xeyirxahlıqla, insansevərliklə, mərhəmətlə həll etməyə çalışmaq lazımdır. Bu, vətəndaş cəmiyyətinin formalaşmasında ən əsas şərtlərdən biridir".

Amnistiya aktı nəticəsində azadlıqdan məhrum etmə qismində cəza çəkən məhkumlardan təqribən 1500 nəfər cəzaçəkmə müəssisələrindən azad edildi, habelə azadlıqdan məhrumetmə cəzası ilə bağlı olmayan cəzalara məhkum olunmuş təqribən 7500 nəfər şəxs cəzasından azad edildi.

Ümummilli liderin humanist siyasətinə daim yüksək sədaqət nümayiş etdirən fondun prezidenti Mehriban xanım Əliyeva humanizm və sevgi hisslərini oyadan milli bayramımız olan Novruz münasibətilə növbəti amnistiya təşəbbüsü irəli sürərək bununla bağlı qərar layihəsini Milli Məclisə təqdim etdi.

Ölkə parlamenti və Prezident İlham Əliyev tərəfindən təsdiq edilən Amnistiya aktı nəticəsində təqribən 9 min nəfər amnistiya aktının təsiri altına düşdü, 1.700 məhkum azadlıqdan məhrumetmə yerlərindən azad edildi.



Fond cəmiyyəti mərhəmət və humanizm ruhunda kökləməyə yönəlmiş nəcib addımlarını bu gün də inamla davam etdirir. Cəmiyyətdə tam bir inam var ki, Heydər Əliyev Fondu bundan sonra da insan hüquq və azadlıqlarının keşiyində etibarlı dayanmaqla vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu siyasətinə töhfələrini verəcək.





## "Qüvvət elmdədir, başqa cür heç kəs...

...heç kəsə üstünlük eyləyə bilməz". Dahi Azərbaycan filosofu, alimi və şairi Nizami Gəncəvi bu müdrik kəlamı ilə elmin və təhsilin insan həyatında ən qiymətli sərvət olduğunu göstərib. Azərbaycanın 1-ci xanımının ən böyük amalı xalqın elmlənməsi, maariflənməsi və dünyada layiq olduğu yüksək yerə çıxmasıdır.

Məhz bu məqsədlə Fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib.



Layihəsi çərçivəsində yüzlərlə məktəb binası inşa və ya təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub.

"Təhsilə dəstək" layihəsi çərçivəsində hər yeni dərs ilinin əvvəlində məktəblilərə çanta və digər məktəb ləvazimatlarının verilməsi Heydər Əliyev Fondunun ənənəsidir. 2004-cü ildən başlayaraq fond hər il qaçqın və məcburi köçkün ailələrindən olan 1-ci sinif şagirdlərini, eləcə də Gürcüstanda yaşayan soydaşlarımızı yeni dərs ili ərəfəsində hədiyyə etdiyi çanta və dərs ləvazimatı ilə sevindirir. Rusiya paytaxtında və ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən Azərbaycan məktəblərinə göstərilən müntəzəm qayğı da bu qəbildəndir.

Fondun son illərdəki başlıca fəaliyyət istiqamətlərindən biri də ölkənin təhsil problemlərinin həllində nüfuzlu beynəlxalq təşkilatlardan sayılan YUNESKO-nun geniş imkanlarından səmərəli şəkildə faydalanmaqdan ibarət olub. Azərbaycanla YUNESKO arasında bir neçə istiqamətdə əməkdaşlıq münasibətləri qurulub- bu əlaqələr, əsasən, "Təhsil hamı üçün" proqramını, "Assosiativ məktəblər", texniki-peşə sahəsində əməkdaşlıq, inklüziv təhsil layihəsi, ali məktəblərdə YUNESKO kafedralarının yaradılması və digər sahələri əhatə edir.

Ölkəmizdə təhsilin sürətli inkişafı, gələcək nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, onların Azərbaycanın layiqli vətəndaşları kimi yetişməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü məqsədyönlü işlər ilk növbədə milli ruha söykənən vətənpərvərlik hissinin təcəssümüdür.

## Dövlətlər iqtisadiyyatı, millətlər mədəniyyəti ilə tanınır

Azərbaycan mədəniyyəti Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın şəxsində özünə etibarlı hami tapıb. Ötən dövrdə Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil edilməsi Azərbaycanın 1-ci xanımının milli mədəniyyətin dünya miqyasında təbliği sahəsindəki fəaliyyətinin bir istiqamətidir.

Bu sahəyə qayğını fəaliyyətində daim əsas tutan Heydər Əliyev Fondunun prezidenti xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə yüksək həssaslıqla yanaşır, onun dünya arenasında təbliğində fəal iştirak edir.

Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində böyük işlər görülür. Azərbaycan muğamının YUNESKO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması bilavasitə bu fəaliyyətin nəticəsidir.

Ardı Səh. 6

# Bizim Mehriban!

Əvvəli Səh. 5

Fondun milli mədəniyyətin təbliği sahəsində həyata keçirdiyi ən uğurlu layihələrdən biri də "Qarabağ xanəndələri" albomunun hazırlanması olub. YUNESKO xətti ilə hazırlanmış alboma bu adın seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı, muğamın isə ən nadir nümunələrinin bu torpağa məxsus olduğu nümayiş etdirilib.

2009-cu ilin mart ayında Azərbaycanın birinci xanımının təşəbbüsü ilə keçirilən Beynəlxalq muğam festivalı Azərbaycan mədəniyyətinin, musiqisinin bütün dünyada tanıdılması və təbliği istiqamətində mühüm tədbirlərdən biri kimi yadda qalıb. Tədbirdə YUNESKO-nun baş direktoru Koişiro Matsuura, habelə dünyanın 17 ölkəsindən çoxsaylı qonaqlar iştirak ediblər.

Heydər Əliyev Fondunun dəstəyi ilə mütamadi olaraq Qəbələdə Beynəlxalq musiqi festivalı və pianoçuların müsabiqəsi keçirilir.

Ümumiyyətlə, Fondun diqqət yetirdiyi sahələr cəmiyyətin olduqca həssas qütbləridir və bunun mərkəzində milli genefondun inkişafı, xalqın minilliklərdən keçirib bugünə çatdırdığı mədəni, milli, əxlaqi dəyərlər sistemi dayanır. Fondun müxtəlif layihələrini birləşdirən ortaq nöqtə isə məhz milli genefondun qorunmasıdır.





## Əsl həyat yoldaşı nümunəsi

Birinci xanım indiyədək gördüyü işlərdə, fəaliyyətində həmişə həyat yoldaşının dəstəyini hiss etdiyini, ona güvəndiyini Moskvada çıxan "Bakı" jurnalına bildirmişdi. Mehriban Əliyeva jurnala verdiyi müsahibəsində qeyd edir: "Ölkənin birinci xanımı olmaq asan deyil. Tədricən kameralara, sənə zillənən baxışlara öyrəşirsən. Bunu öz həyat atributun kimi qəbul edirsən. Ölkə prezidentinin həyat yoldaşı olmaq məsuliyyətli, çətin işdir. Sən yalnızca özünü və ailəni yox, həm də haradasa öz ölkəni təmsil edirsən. Sözlər, hərəkətlər, davranış hamısı yerində olmalıdır".

Birinci xanım həmçinin həyat yoldaşı ilə mübahisə etmədiyini, prezidentin düşüncəsinə və dünyagörüşünə böyük önəm verdiyini deyir: "Ailə həyatındakı çoxillik təcrübəm mənə göstərib ki, İlham hər hansı problemi düzgün qiymətləndirə və nəticəni əvvəlcədən görə bilir. Mən onun məsləhətlərini dinləyirəm, amma öz intiusiyama da güvənirəm. Əlbəttə, elə hallar olur ki, bizim baxışlarımız tutuşmur. Amma bu, mübahisə üçün səbəb ola bilməz. Biz artıq çoxdan bir-birimizə hörmət etməyə öyrəşmişik".

Mehriban Əliyeva məşhur "İzvestiya" qəzetinə verdiyi müsahibəsində isə prezidentlə şəxsi həyatları barədə belə danışmışdı: "İlhamla mənim çox şeylər barədə təsəvvürümüz eynidir. Biz təxminən oxşar mühitdə böyümüşük. Böyüdüyümüz mühit əsrin bütün mürəkkəbliklərinə baxmayaraq, öz ideallarına, mənəvi dəyərlərinə, milli ənənələrinə sadiq qala bilən Azərbaycan ziyalılarıdır. Belə köklərə malik olmaq xoşbəxtlikdir. Qadın, hətta əgər o, prezidentin xanımı da olsa, hər şeydən əvvəl, qadındır, ailədə sülhün, razılığın və məhəbbətin təminatçısıdır. Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır və dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər".

I Avropa Oyunlarının və İslamiadanın təşkilində, keçirilməsində 1-ci xanımın əvəzsiz əziyyətini də mütləq qeyd etmək lazımdır. Məhz onun zəhməti, rəhbərlik etdiyi komandanın düzgün istiqamətləndirmə qabiliyyəti sayəsində Azərbaycan bu imtahandan da layiqincə çıxdı, bütün dünya mətbuatı Azərbaycanın təşkil etdiyi bu möhtəşəm tədbirlərdən yazdı.

## Müzəffər sərkərdənin əzmkar döyüş yoldaşı

Öz dövrünün böyük ictimai xadimi, görkəmli şəxsiyyəti adını hər əsrdə yalnız bir neçə qadın qazana bilir. Yalnız dünya miqyasında tanınmış, böyük ictimai fəaliyyətdə bulunmuş, humanist ideyaları həyata keçirmək üçün çalışmış qadınlar "Əsrin böyük qadını" fəxri tituluna layiq görülürlər. Mehriban Əliyeva bu beynəlxalq səviyyəli titula layiq görülmək üçün nominant kimi irəli sürülüb. Hər bir azərbaycanlı inanır ki, birinci xanımımız bu yüksək ada gölüləcək. O, buna layiq olduğunu çoxdan sübut edib.

Azərbaycanın birinci xanımı humanist fəaliyyətin, qayğıkeşliyin, eləcə də hansısa problemlərlə qarşılaşan, hansısa məqamda hüquqları pozulan sıravi vətəndaşların ümid, pənah yerinə çevrilib.

Mehriban xanım ən ağır, ən çətin işlərdə, təhlükəli səfərlərdə öz həyat yoldaşını-Ali Baş Komandanımızı tək buraxmayıb, həmişə onun yanında olub. 2-ci Qarabağ müharibəsində var gücü ilə çalışdı və qələbə üçün öz töhfələrini verdi. Həm daxili, həm beynəlxalq arenada həqiqətləri çatdırmaq, ölkəmizə, xalqımıza haqq işində dəstək qazanmaq üçün mümkün olan hər şeyi etdi. Onun mətinliyi Azərbaycan qadınlarını ruhlandırdı və arxa cəbhədə qələbəyə inamla çalışmalarına töhfə verdi.

Müharibədən sonra azad olunmuş ərazilərə- minalardan təmizlənməmiş bölgələrə səfərdə onu həmişə prezidentimizlə yanaşı görmək olar. Mehriban xanım göstərdi ki, Azərbaycan qadını dünyanın ən humanist, ən qayğıkeş, ən sülhpərvər qadını olmaqla yanaşı, həm də lazım gəldikdə Vətənini, xalqını qorumaq üçün öz paltarını hərbi geyimlə əvəz edib ən təhlükəli döyüş bölgəsində peyda ola bilər.

Azad olunmuş torpaqlarımızdan çəkilişlər edib öz sosial şəbəkə səhifəsində yaymaqla öz mətinliyini və səmimiyyətini sübut edən 1-ci xanımın hər belə paylaşımlarında "Sizin Mehriban" imzasını görən insanlar onun həqiqətən də bizim Mehriban olduğunu anlayırlar.

Bəli, o təkcə dövlətimizin 1-ci vitse-prezidenti, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri deyil, o bizim üçün ilk növbədə, sadəcə, bizim Mehribandır.

*Lalə Mehralı*



# “Qalib Azərbaycan Silahlı Qüvvələri bundan sonra da xalqımızın, dövlətimizin və Müzəffər Ali Baş Komandanımızın etimadını şərəflə doğruldacaqdır”

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyevin SİA-ya verdiyi müsahibəni təqdim edirik:**

*- Məhərrəm müəllim, müsahibəmiz ərəfəsində bu gün doğum gününüzün olduğunu öyrəndik. Həmçinin Azərbaycan Respublikası Prezidenti*



*cənab İlham Əliyev tərəfindən yüksək orden ilə təltif olunmusunuz. Bu münasibətlə Sizi ürəkdən təbrik edirik və fəaliyyətinizdə uğurlar arzu edirik.*

- Diqqətinizə və səmimi təbriklərinizə görə minnətdarlığımı bildirirəm. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Sərkərdəmiz, Ali Baş Komandanımız İlham Əliyev cənablarına məni yüksək ordenlə təltif etdiyinə görə öz dərin minnətdarlıqlarımı və sonsuz təşəkkürlərimi bildirirəm. Bu ali mükafat kollektivimizə verilən yüksək qiymət və etimaddır. Əmin edirəm ki, bundan sonra da, Dövlətçiliyimizin və Vətənimizin xidmətində yorulmadan sədaqətlə fəaliyyət göstərəcək, üzərimizə düşən vəzifənin yüksək səviyyədə icra olunması istiqamətində daim çalışacağıq.



*- Artıq Şanlı Qələbəmizin birinci ildönümünə sayılı günlər qalıb. Bununla əlaqədar fikirlərinizi bizimlə bölüşməyinizi istərdik.*

- İlk olaraq doğma Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbr, qazilərimizə şəfa diləyirəm. Bu gün bizim qazilərimiz başları uca, alınları ağ olaraq həyatlarını davam etdirirlər, çünki onlar qalib Ordunun qaziləridirlər və əlbəttə ki, dövlətimiz onların da, şəhid ailələrinin də daim qayğısına qalır, bu istiqamətdə cənab Ali Baş Komandanımızın diqqətində saxlanılırlar. O cümlədən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə həyata keçirilən sosial dəstək və dayaq məqsədli yardım aksiyaları, şəhid və qazi ailələrinə xüsusi həssaslıq və qayğı ilə yanaşma xalqımız tərəfindən daim rəğbət və sevgi ilə qarşılanır. Həmçinin, Azərbaycan Respublikasının Prezidentinin müvafiq Fərmanı ilə yaradılmış və uğurla fəaliyyət göstərən ”YAŞAT” Fondunun şəhid ailələrinə və onların övladlarının təhsillərinə, sosial-məişət həyatlarına göstərilən diqqət və qayğı ilə yanaşı, qazilərimizə, müharibə zamanı ağır yaralanan, qazi olan hərbçilərimizə tətbiq edilən bütün imkanlar dövlət və ordu birliyinin nə qədər möhkəm dayaqlara söykəndiyini əks etdirir.



Qarabağ Zəfərimiz bu gün dünyanın aparıcı hərbi akademiyalarında və ali hərbi sferalarında təhlil edilir, Azərbaycan Silahlı Qüvvələrinin Qarabağdakı hərbi-taktiki fəaliyyətləri hərbi dərsliklərə salınır. Çünki ən güclü ordular sırasında yer alan Silahlı Qüvvələrimiz Vətən müharibəsində mükəmməl döyüş taktikası ilə yeni nəsil müharibə nümunəsi göstərdi.

Müzəffər Sərkərdəmiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin tələb və tövsiyələrinə uyğun olaraq bu gün qarşımızda Silahlı Qüvvələrin, qoşun növlərinin, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin gücləndirilməsi, daha effektiv silahların və döyüş texnikalarının istehsalı ilə müdafiə sənayesinin genişləndirilməsi, Ordu ilə digər hərbi qurumlar arasında qarşılıqlı əlaqələrin daha da təkmilləşdirilməsi, beynəlxalq təlimlərdə iştirakın təmin olunması, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması kimi tapşırıqlar durur. Cənab Ali Baş Komandan İlham Əliyev bu məsələlərə xüsusi diqqət göstərir və öz çıxışlarında Azərbaycan Ordusunun bundan sonra da gücləndiriləcəyini, dünyanın ən güclü orduları sırasında yerinin möhkəmləndiriləcəyini vurğulayır. Ötən dövr ərzində Azərbaycan Ordusu qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələri ilə ”Sarsılmaz qardaşlıq” və Azərbaycan-Türkiyə-Pakistan Silahlı Qüvvələrinin ”Üç qardaş” hərbi təlimlərini uğurla keçirmişdir. Təlimlər zamanı əldə edilən nəticələr də isbat edir ki, Azərbaycan Silahlı Qüvvələri tərəqqi edir və daim Vətənin keşiyində dayanaraq, ölkənin təhlükəsizliyini, müdafiəsini və ərazi bütövlüyünün qorunması təminatını ən yüksək səviyyədə həyata keçirir.

Bu gün Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xeyli mütərəqqi işlər görülməkdədir və biz əminik ki, illər boyu xarabalıq şəraitində olan doğma ərazilərimiz digər bölgələrimiz kimi hərtərəfli inkişaf edəcəkdir. Bu istiqamətdə dövlətimiz xeyli iş görüb və bu işlər görülməkdədir. Əminliklə vurğulamaq istərdik ki, qalib Azərbaycan Silahlı Qüvvələri bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldaraq, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldərək Müzəffər Sərkərdəmiz, cənab Ali Baş Komandanımız İlham Əliyevin bütün əmr və tapşırıqlarını yerinə yetirmək üçün hər an hazır olacaqdır.



# “Hasilat Sənayesində Şəffaflıq” Portalının təqdimat mərasimi keçirilib

**Oktyabrın 19-da Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində ”Hasilat Sənayesində Şəffaflıq” Portalının təqdimat mərasimi keçirilib.**

Təqdimat mərasimində Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov, Dövlət Neft Fondunun icraçı direktorunun müavini Rövşən Cavadov və Dövlət Neft Şirkətinin vitse-prezidenti Süleyman Qasımov çıxış ediblər.

Qeyd olunub ki, Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün tətbiqində pilot ölkə olmaqla Azərbaycan Respublikası hasilat sənayesində şəffaflıq və hesabatlılıq üzrə beynəlxalq səyləri daim dəstəkləmiş, 2003-cü ildə ”Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü”nə qoşulmuş, 2005-ci ildə dünyada ilk dəfə şəffaflıq təşəbbüsü üzrə hesabatı açıqlamışdır. Hasilat sənayesində şəffaflığın təmin olunması sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilib, Azərbaycan Respublikası BMT-nin ”Dövlət Xidmətləri Mükafatı”na və ”2009-cu il üzrə Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü Mükafatı”na layiq görülüb. Bununla yanaşı vurğulanıb ki, son illərdə hesabatlılığı təşviq edən beynəlxalq prinsip və standartlarda hesabatvermə mexanizmlərinin səmərəliliyinin artırılması və daha çevik işləməsi məqsədilə mühüm dəyişikliklər edilib. Bu dəyişikliklərdən biri də dövlət idarəçiliyində müasir texnologiyalardan istifadə etməklə aparılan işin səmərəliliyini artırmaq, məlumatlardan istifadə imkanlarını sadələşdirmək, məlumatları sərbəst əldə etmək üçün şəffaflıq və hesabatlılığın müntəzəmliyini təmin etmək məqsədilə hesabatlılığın aidiyyəti dövlət qurumlarının fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi yolu ilə tədricən onların açıqlama və hesabatvermə sistemlərinə inteqrasiya olunmasıdır. Bununla əlaqədar ”Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 iyul tarixli Fərmanı ilə hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığı və bu sahədə dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, Azərbaycan Respublikasında hasilat sənayesində şəffaflıq üzrə hesabatların davamlı toplanmasını və toplanmış hesabatlar əsasında statistika məlumatlarının ictimaiyyətə açıqlanmasını təmin etmək Dövlət Statistika Komitəsinə həvalə edilib.

Daha sonra Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov hasilat sənayesində şəffaflıq üzrə hesabatların toplanması və ictimaiyyətə açıqlanmasını təmin etmək məqsədilə həyata keçirilmiş tədbirlər barədə iştirakçılara məlumat verib. Bildirilib ki, ilkin mərhələdə hasilat sənayesində şəffaflıq üzrə statistik göstəricilər sistemi hazırlanıb, aidiyyəti qurumlarla razılaşdırılaraq Komitə tərəfindən təsdiq edilib, növbəti mərhələdə isə aidiyyəti dövlət orqanlarından və hasilat sənayesi ilə məşğul olan müəssisələrdən göstəricilər sistemi əsasında məlumatlar toplanıb. Toplanmış məlumatların müasir texnoloji vasitələrlə istifadəçilərə çatdırılması məqsədilə ”Hasilat Sənayesində Şəffaflıq” Portalı hazırlanıb. Vurğulanıb ki, Portal hasilat sənayesi sahəsində statistik məlumatların ictimaiyyətə, o cümlədən dövlət qurumlarına, özəl sektor, elm və təhsil müəssisələrinə, vətəndaş cəmiyyəti institutlarına, kütləvi informasiya vasitələrinə, regional və beynəlxalq təşkilatlara çatdırılması üçün əlverişli informasiya mühiti yaratmaqla virtual körpü rolunu oynayacaqdır.















Dövlət Statistika Komitəsinin Sənaye və tikinti statistikası şöbəsinin müdiri Elman Qasımzadə Portalın təqdimatını həyata keçirib.

Mərasimin sonunda tədbir iştirakçılarını və KİV nümayəndələrini maraqlandıran suallar da cavablandırılıb.

# “Prezidentin yeni sərəncamı ilə sosial ödənişlərdə ciddi artımlar təmin ediləcək”

**“Azərbaycan vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi, sosial rifahının daim yaxşılaşdırılması ölkə siyasətinin prioritet məsələlərindən biridir”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.**

Onun sözlərinə görə, bu gün cənab Prezident İlham Əliyevin əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında verdiyi sərəncamda bu siyasətin məntiqi davamıdır: ”Bu sərəncamın verilməsi Azərbaycan vətəndaşlarının, o cümlədən bütün kateqoriyadan olan insanlarımızın sosial rifahının yaxşıladırılmasına müsbət təsirini göstərəcəkdir. Sərəncamda deyildiyi kimi Azərbaycan vətəndaşlarının sosial rifahının qorunması dövlət siyasətinin mühüm tərkib hissəsidir və dövlətin sosial-iqtisadi imkanları genişləndikcə vətəndaşların da sosial rifahının artırılması üçün ardıcıl tədbirlər görülür. 2018-ci il seçkilərində cənab Prezidentin qarşıdakı 5 il ərzindəki proqramının əsas mahiyyəti Azərbaycanı inkişaf etmiş sosial dövlətə çevirmək və Azərbaycan əhalisinin sosial rifah halını dünyanın qabaqcıl ölkələrinin sosial rifah halına çatdırmaqdan ibarətdir. Məhz bu konsepsiyanı həyata keçirərək cənab Prezidentin fərman və sərəncamları ilə 2019-cu ildə inqilabi xarakterli sosial müdafiə paketi qəbul olundu. Məhz bu paketin qəbul olunması nəticəsində ölkədə pensiyalar iki dəfəyə yaxın artdı, sosial müavinətlər və təqaüdlər iki dəfədən çox artdı. Orta aylıq əmək haqqı 40% yüksəldi. Orta aylıq pensiya 60%-dən yuxarı olaraq artdı. Həmin ənənə bundan sonrakı illərdə də davam edirdi”.

Musa Quliyev fikirlərinə davam edərək həmçinin qeyd edib ki, təəssüflər olsun ki, 2020-ci ilin əvvəlində başlayan və ümumilikdə dünyanın iqtisadiyyatına ciddi zərər vuran koronavirus pandemiyası bu prosesləri bir qədər ləngitmiş oldu: ”Baxmayaraq ki, koronavirus pandemiyası Azərbaycan iqtisadiyyatının da inkişaf etməsinə mane oldu. Amma bu pandemiyadan da əhalinin zərər çəkməsinin qarşısını almaqdan ötrü cənab Prezidentin fərman və sərəncamları ilə 4 milyard 500 milyon manatlıq sosial müdafiə paketi qəbul olundu ki, burada həm aztəminatlı insanlara müavinətlərin verilməsi, həm iş yerlərinin qorunub saxlanılması, həm sahibkarların iqtisadi zərərlərinin kompensasiya olunması, işləmədiyi halda vətəndaşlarımıza orta aylıq maaşların verilməsi və s. tədbirlər də həyata keçirildi. Postmüharibə dövründə də bu siyasət uğurla davam etdirildi və cənab Prezidentin sərəncamları ilə şəhid ailələrinin, müharibə qazilərinin, veteranların sosial müdafiəsinin gücləndirilməsi üçün ciddi tədbirlər görüldü və bu gün də bu proses davam edir. Cənab Prezidentin bu gün verdiyi sərəncamın mahiyyəti bu sosial siyasəti davam etdirməkdən ibarətdir. Bu sərəncamın icrası ilə bağlı gələn ilin büdcəsində pensiyaların, müavinətlərin, təqaüdlərin, əmək haqlarının artırılması nəzərdə tutulur”.



***Arzu Qurbanzadə***

# Zəngilanın işğaldan azad olunmasından bir il ötür

## Prezident İlham Əliyev: "Zəngilana ilk köçkünlər gələn il, bəlkə də bu ilin sonuna qədər köçəcəklər"




Bir il əvvəl Azərbaycan ordusu qızğın döyüşlərdə haqq savaşında torpaqlarımızın işğaldan azad olunması uğrunda vuruşurdu. Sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən Azərbaycan xalqı qələbə xəbərlərini eşidir və tezliklə zəfərimizin qazanılacağı günün lap yaxında olduğuna inanırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu gücünü döyüş meydanında düşmənə göstərdi. Cənab Prezidentin həmin günlərdə xalqa müraciətlərində hər gün ordumuzun daha da irəliləyərək, yeni kənd, qəsəbə və şəhərlərin azad olunması ilə bağlı məlumatları bizi doğma torpaqlarımıza daha da yaxınlaşdırırdı. Düz bir il əvvəl oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində bildirdiyi kimi, "Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir". Cənab Prezident həmin gün etdiyi müraciəti zamanı "Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!", - deyərək xalqımıza böyük bir sevinci, iftixarı yaşatdı. Həmin tarixə qədər Azərbaycan ordusu bir sıra əraziləri işğaldan azad etmişdir. Artıq bir aya yaxın idi ki, döyüşlər davam edirdi. Cənab Prezident "Biz öz missiyamızı yerinə yetiririk", - deyərək bildirib ki, düşmənə layiqli cavab veririk: "Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"

### "HƏR GÜN BAYRAĞIMIZ YENİ BİR YAŞAYIŞ MƏNTƏQƏSİNDƏ UCALDILIR"

Azərbaycan müharibə dövründə mənfur düşmənin təcavüzünün bir daha şahidinə çevrildi. Müharibə dövründə düşmən cəbhəboyu şəhərlərimizi, kəndlərimizi, yaşayış məntəqələrimizi də atəşə tuturdu. Ağdam, Goranboy, Ağcabədi, Bərdə digər şəhər və rayonlara atəş açılırdı. Gəncə şəhərində yaşanılan faciələr erməni təcavüzkarlarının dünyanın gözü qarşısında iç üzünü ortaya qoymuş oldu. "Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir və bizi durdurmaq üçün, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törədir. Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir. Otuz il ərzində bizim torpaqlarımızda oturub bizə meydan oxumağa çalışırdı", - deyə Cənab Prezident müraciəti zamanı bildirmişdir. Azərbaycan ordusunun qarşısında duruş gətirə bilməyən ermənilər artıq məğlubiyyətlərini dərk edirdilər. "Artıq bizim qarşımızda diz çöküb, onlara diz çökdürmüşük, onlara layiq olan yeri göstərmişik", - deyən Prezident hər gün xoş xəbərlərin gəldiyini bildirmişdir: "Hər gün bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır. Budur, Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücü Otuz il idi ki, işğal edilmiş torpaqlarda abidələrimizi dağıdırdı, tarixi-mədəni irsimizi silmək istəyirdi".

### "BU GÜN ERMƏNİLƏRƏ HAVADARLIQ EDƏNLƏR GƏLSİNLƏR, GÖRSÜNLƏR, BİZİM MƏSCİDLƏRİMİZİ NƏ GÜNƏ QOYUBLAR "

44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdığından azad etdi. Bu gün Zəngilanın işğaldan azad olunmasından bir il ötür. 29 oktyabr 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayon işğal olunmazdan qabaq erməni qüvvələri tərəfindən tam olaraq mühasirəyə alınmış və on minlərlə insan qırılmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Zəngilandakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib. Ümumiyyətlə, 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan dəyib. Zəngilan rayonunda bir şəhər, 5 qəsəbə (Ağ oyuq, Mincivan, Bartaz, Ağbənd, Həkəri) və 79 kənd olmuşdur. Zəngilan memarlıq abidələri ilə də zəngin bir diyardır. Bu məkanın hər bir ərazisi Azərbaycan tarixindən xəbər verir.

Bu gün Zəngilanda Azərbaycan bayrağı dalğalanır. "Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb". Bu sözləri aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl və Zəngilan rayonlarına səfəri çərçivəsində Zəngilan məscidində olarkən bildirib: "Bu məscid mənfur düşmən tərəfindən dağıdılmışdır. Müharibədən sonra Zəngilana səfər edərkən buraya da gəldim, mənzərə ilə tanış oldum və bildirdim ki, hər kəs bunu görməlidir. Bütün beynəlxalq təşkilatlar bunu görməlidir, erməni vəhşiliyini görməlidir. Bir daha demək istəyirəm ki, bu gün ermənilərə havadarlıq edənlər gəlsinlər, görsünlər, bizim məscidlərimizi nə günə qoyublar və təkcə bu məscidi deyil".

Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış ərazilərimizdə ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. Bildiyimiz kimi, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Ərazidə, ilk olaraq, 200 fərdi ev istifadəyə veriləcək. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunur və turizm infrastrukturu formalaşdırılacaq. "Ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradaraq, "ağıllı tədris", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemləri həyata keçiriləcək. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri ötən ilin oktyabrın 28-də işğalçılardan azad edilib. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyulub. Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının da təməlini qoyub. Şübhəsiz ki, bu hava limanı bölgənin inkişafında mühüm rol oynayacaq. "Bu hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq" - deyən Cənab Prezident bu hava limanının bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacağını bildirib: "Təsadüfi deyil ki, hava limanı, məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır".

Bu gün böyük abadlıq quruculuq işləri davam etdirilir. Tikiləcək yeni evlər, ictimai binalar, sosial obyektlər tezliklə buranı müasir şəhərə çevirəcək. "Zəngilana ilk köçkünlər gələn il, bəlkə də bu ilin sonuna qədər köçəcəklər. Başqa kəndlərə də bir il müddətində köçmək olar. İri şəhərlərin bərpası isə yəqin ki, vaxt tələb edəcək, lakin biz bunu mərhələli şəkildə planlaşdıracağıq", - deyə Cənab Prezident müsahibələrinin birində bildirmişdir.

***Zümrüd BAYRAMOVA***

# Tahir Budaqov: "Hasilat Sənayesində Şəffaflıq" Portalı statistika potensialının artırılması sahəsində görülən işlərin növbəti bir nümunəsidir

**"Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün tətbiqində pilot ölkə olmaqla Azərbaycan Respublikası hasilat sənayesində şəffaflıq və hesabatlılıq üzrə beynəlxalq səyləri daim dəstəkləyib. Ölkəmiz hasilat sənayesində şəffaflığı ən yüksək səviyyədə təşviq edərək 2003-cü ildə "Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü"nə qoşulub, 2005-ci ildə dünyada ilk dəfə şəffaflıq təşəbbüsü üzrə hesabat açıqlayıb. Hasilat sənayesi üzrə şəffaflıq məsələlərinə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən daim xüsusi önəm verilib, bu barədə müvafiq fərman və sərəncamlar imzalanıb". Bu fikirləri Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov oktyabrın 19-da keçirilən "Hasilat Sənayesində Şəffaflıq" Portalının təqdimat mərasimi zamanı jurnalistlərə açıqlamasında deyib.**



Tahir Budaqov bildirib ki, dövlət başçısının "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 5 aprel tarixli Fərmanı ilə aidiyyatı dövlət qurumlarının yüksək vəzifəli şəxslərindən ibarət Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya yaradılıb. Fəaliyyət göstərdiyi müddət ərzində Dövlət Statistika Komitəsinin nümayəndəsinin də iştirak etdiyi Komissiya hasilat sənayesi üzrə şəffaflığın təmin edilməsi məqsədilə lazımi tədbirləri həyata keçirib və bu sahədə hazırlanmış hesabatları mütəmadi dərc edərək ictimaiyyəti məlumatlandırıb.

Komitə sədri qeyd edib ki, "Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 iyul tarixli Fərmanı ilə hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığı və bu sahədə dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, ölkəmizdə hasilat sənayesində şəffaflıq üzrə hesabatların davamlı toplanmasını və toplanmış hesabatlar əsasında statistika məlumatlarının ictimaiyyətə açıqlanmasını təmin etmək Dövlət Statistika Komitəsinə həvalə edilib.

Onun sözlərinə görə, ötən dövr ərzində Dövlət Statistika Komitəsi hasilat sənayesində şəffaflıq üzrə hesabatların toplanması və ictimaiyyətə açıqlanmasını təmin etmək məqsədilə bir sıra tədbirlər həyata keçirib: "Görülmüş işlərin yekunu olaraq bu gün təqdim olunan "Hasilat Sənayesində Şəffaflıq" Portalının hazırlanması təmin edilib. Hesab edirəm ki, hazırlanmış bu portal son dövrlərdə statistika potensialının artırılması sahəsində görülən işlərin növbəti bir nümunəsidir. Bu gün təqdim edilən Portal Dövlət Statistika Komitəsinin digər informasiya ehtiyatları ilə uzlaşdırılıb və düşünürəm ki, Portal hasilat sənayesində statistik məlumatlarla ictimaiyyəti, o cümlədən dövlət qurumlarını, özəl sektoru, elm və təhsil müəssisələrini, vətəndaş cəmiyyəti institutlarını, kütləvi informasiya vasitələrini, regional və beynəlxalq təşkilatları təmin etmək üçün əlverişli informasiya mühiti yaradacaq. Portal həmçinin hasilat sənayesinin səmərəli idarə edilməsində, bu sahədə davamlı və uzunmüddətli şəffaflıq mexanizmlərinin qurulmasında, habelə yüksək hesabatlılığın təmin edilməsində əhəmiyyətli rol oynayacaq".

# Şeyx Ayiş əl-Huvəyyan: Azərbaycan xalqının düşmən üzərində qələbəsi üçün Uca Allaha dua edirdim



**Azərbaycan xalqının düşmən üzərində Qələbə çalması üçün Uca Allaha dua edirdim. Mən qardaş azərbaycanlılara sülh, əmin-amalıq və tərəqqi arzulayıram. Əminəm ki, İordaniya Kralı II Abdulla və Azərbaycan Prezidenti İlham Əliyevin möhkəm dostluq münasibətlərinə söykənən əlaqələrimiz bundan sonra da inkişaf edəcək.**

AZƏRTAC xəbər verir ki, bu sözləri İordaniyanın nüfuzlu əl-Huvəyyan aşirətinin rəhbəri Şeyx Ayiş əl-Huvəyyan Azərbaycanın bu ölkədəki səfiri Eldar Səlimov ilə görüşündə söyləyib. Aşirətin mərkəzi ofisində yerləşən binada keçirilən görüşdə Liviya və İordaniyanın diplomatları, İordaniya Ali Məhkəməsinin və Vəqflər Nazirliyinin əməkdaşları da iştirak ediblər.

Şeyxə təşəkkürünü bildirən səfir E.Səlimov qeyd edib ki, dost ölkələrimiz arasında əməkdaşlıq yüksək səviyyədədir və İordaniya-Azərbaycan əlaqələrinin inkişafının böyük potensialı var. Görüşdə çıxış edən iordaniyalı tarixçi-alim Ömər əl-Armuti İordaniya ictimaiyyəti adından Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevi və xalqımızı böyük Qələbə münasibətilə təbrik edib. O qeyd edib ki, indi Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə geniş bərpa-quruculuq işləri aparır və tezliklə torpaqlarından didərgin düşmüş azərbaycanlılar öz doğma yurdlarına qayıdacaqlar.

# Şəhidlik zirvəsinə ucalan igidlərimiz!

## YAP Şabran rayon təşkilatının fəalları şəhid Anar Mehdiyevin anım mərasimdə iştirak ediblər

YAP Şabran rayon təşkilatında "Şəhid ailələrinə qayğı" aksiyası davam edir. 18 oktyabr 2021-ci il tarixdə Şabran rayonu Zeyvə kəndində yaşayan Vətən müha-







ribəsində torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Mehdiyev Anar İlham oğlunun ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Mərasimdə Şabran rayon İcra Hakimiyyəti başçısı Asif Hüseynov, YAP Şabran rayon təşkilatının sədr səlahiyyətlərini icra edən Mehdi Balabəyov, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Şabran rayon təşkilatının əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir. Tədbir çərçivəsində şəhidimizin məzarını ziyarət edib, məzarı üzərinə gül-çiçək dəstələri düzərək əziz xatirəsini böyük ehtiramla yad ediblər. YAP Şabran rayon təşkilatında bundan sonra da "Şəhid ailələrinə qayğı" aksiyası davam edəcək.

Allah şəhidlərimizə rəhmət eləsin.

*Rəfiqə*



## Oğuzda Vətən müharibəsi şəhidi Səfa İsazadənin xatirəsi anılıb

Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatının nümayəndələri Vətən müharibəsi şəhidi İsazadə Səfa Əmirxan oğlunun ildönümü ilə əlaqədar Xaçmaz kənd Şəhidlər Xiyabanındakı məzarını ziyarət edib, məzarı üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini böyük ehtiramla yad ediblər. Rayon təşkilatının nümayəndələri eyni zamanda, şəhidin ailəsini ziyarət ediblər. Şəhidin ailə üzvləri dövlətimiz tərəfindən şəhid və qazi ailələrinə göstərilən diqqət və qayğıya görə, Prezident Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

İsazadə Səfa Əmirxan oğlu 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsinin 3-cü günündə 29 sentyabrda müharibəyə yola düşüb. Talış kəndinin azad olunması uğrunda əməliyyatlarda iştirak edib. Səfa İsazadə oktyabrın 14-da Suqovuşan döyüşlərində qəhrəmancasına vuruşaraq şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün, döyüş əməliyyatlarında şəxsi igidliyi və şücaət nümayiş etdirdiyinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Səfa İsazadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*ZÜMRÜD*

## Qəbələli şəhid mayor Natiq İsmayılovun ildönümü qeyd olunub





Vətən müharibəsində qəhrəmancasına döyüşmüş mayor İsmayılov Natiq Əjdər oğlunun şəhidlik zirvəsinə ucaldığı gündən bir il keçir. Bu münasibətlə rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhidin təhsil aldığı məktəbin kollektivi, döyüş yoldaşları tərəfindən Natiq İsmayıllovun məzarı ziyarət edilərək xatirəsi ehtiramla anılmış, məzarı üzərinə gül dəstələri qoyulmuş və ruhuna dualar oxunmuşdur. Həmçinin, şəhidin xatirəsinə Bunud kəndində ucaldılmış bulaq kompleksinin açılışı olmuşdur. Vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə, döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayılov Natiq ölümündən sonra "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Tədbir iştirakçıları şəhidin ailəsini evlərində ziyarət etmişlər. Şəhidin ailə üzvləri şəhid ailələrinin Ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatələndiyini bildirmiş, sosial təminatlarının yaxşılaşdırılması istiqamətində görülmüş işlər və aparılan islahatlara görə dərin minnətdarlıqlarını bildirmişlər.

*Rəfiqə*

## Şəhidlərimizin keçdiyi şərəfli döyüş yolu qürurumuzdur

YAP Zaqatala rayon təşkilatının, Zaqatala rayon icra hakimiyyətinin rəhbərliyi, Zaqatala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları, Milli Məclisin deputatı Kamilə Əliyeva, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, din





xadimləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon Dardoqqaz kənd sakini Xudaverdiyev Mahmud Əhməd oğlunun ildönümü ilə əlaqədar məzarını ziyarət edib, məzarı üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini böyük ehtiramla yad ediblər. Daha sonra Şəhid ailəsini ziyarət edib, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib və nümunəvi gənclər kimi cəmiyyətin rəğbətini qazandığını vurğulanıb. Şəhidimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Şəhidlərimizin ruhları şad, məkanları cənnət olsun.

*ZÜMRÜD BAYRAMOVA*

# İnformasiya və kommunikasiya texnologiyaları inkişafa zəmin yaradır



İnformasiya və kommunikasiya texnologiyaları (İKT) XX əsrin son onilliyindən başlayaraq artıq cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib. Məhz bu səbəbdən də son illər Azərbaycanın sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya və kommunikasiya texnologiyaları inkişaf səviyyəsinə görə milli iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha intensiv inkişaf edib. Müasir informasiya və kommunikasiya texnologiyaları sahəsinin intensiv və yüksək səviyyədə inkişafını yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və regionlar üzrə genişlənməsi ilə də təsdiq etmək mümkündür.

İnformasiya cəmiyyətinə keçid, onun formalaşdırılması, elektron hökumətin təşkili və intellektual potensialın inkişafı istiqamətində Azərbaycanda neft sektorundan sonra prioritet sahə hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi daha dinamik inkişaf etməkdədir. Ona görə daha dinamik inkişaf etməkdədir ki, əhəmiyyəti artıq danılmazdır və bu sahədə uğurlu addımlar göz önündədir. İnkişaf dinamikası təsdiq edir ki, müasir dövrdə və gələcək perspektivdə sözsüz ki, informasiya və kommunikasiya texnologiyalarının əhəmiyyəti, eləcə də rolu daha da artacaqdır.

Gələcəkdə hər bir ölkənin davamlı rəqabət aparmaq qabiliyyəti, məhz bu ölkələrin informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadə edilməsi imkanlarından asılı olacaqdır və məhz bu səbəbdən də hal-hazırda dünya bazarında elektron ticarətin rolu və yerinin getdikcə artdığı müşahidə edilir ki, bu da təbiidir. Texnologiyalar əhalinin mövcud sosial-iqtisadi durumunda mövcud olan müxtəlif problemlərin səmərəli həll edilməsi, yoxsulluq səviyyəsinin aşağı salınması üçün əsas, həm də tutarlı vasitələrdən hesab edilir və məhz buna görə də son illərdə Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının imkanlarından istifadə olunması istiqamətində müəyyən işlər görülüb, əksər sahələrdə bu texnoloji imkanların tətbiqi istiqamətində böyük uğurlar əldə edilib və etiraf etmək lazımdır ki, bütövlükdə həmin istiqamət də mövcud dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilibdir.

Aparılan müşahidələrdən, eyni zamanda araşdırmalarda da bəlli olur ki, son illər ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları sektoru daha sürətlə və dinamik şəkildə inkişaf etməkdədir. Bu sahədə həyata keçirilən məqsədyönlü siyasət, mühüm dövlət proqramları və zəruri islahatlar nəticəsində Azərbaycan Respublikasının ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası təmin edilibdir. Xüsusilə, elektron hökumətin formalaşdırılması, informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm addımların atılması, müasir və modern texnologiyaların vətəndaşların gündəlik həyatında tətbiqi, Azərbaycan dilli internet resursların zənginləşdirilməsi, respublika əhalisinin əksər hissəsinin internet istifadəçisinə çevrilməsi sadalananların əyani sübutudur.

İnformasiya və kommunikasiya texnologiyalarının ölkəmizdə hər il qeydə alınan inkişaf tempi də səbəbsiz deyil. Buna ən başlıca səbəb əlbəttə ki, dövlət dəstəyinin gücləndirilməsidir. Heç şübhəsiz ki, bu dövlət dəstəyi nəticəsində ölkədə özəl İKT şirkətlərinin sayı artır, onlara ayrılan investisiyalar çoxalır və ixrac imkanları daha da yüksəlir. Ölkə rəhbərinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd edildiyi kimi, "İKT sektorunun mühüm tərkib hissəsi olan telekommunikasiya infrastrukturu və texnologiyası biznes fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb edir ki, bu da qeyri-neft sektorunun inkişafına əsaslı zəmin yaradır, nəticədə iqtisadi inkişafı təmin edir. Belə ki, mobil cihazlar vasitəsilə həyata keçirilən müxtəlif əməliyyatlar, eyni zamanda çoxsaylı elektron ödənişlər və digər elektron əməliyyatlar üçün telekommunikasiya sənayesi mühüm platforma təklif edir. Əlbəttə ki, informasiya və kommunikasiya texnologiyaları sənayesinin daim yeniləndiyini və innovasiyaların tətbiq edildiyini nəzərə alsaq, cəsarətlə deyə bilərik ki, bu sektorun öz faydalarını daha da artırması üçün böyük potensial mövcuddur və bu da öz növbəsində ölkə iqtisadiyyatının beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin daha da yüksəlməsinə əlverişli şərait yaradılması imkanı deməkdir.

Dövrümüzdə informasiya və kommunikasiya texnologiyalarının təsir dairəsi genişlənməkdə davam edir və bu təsir dairəsi artıq dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsil sahəsini, mədəniyyət sahəsini, ümumiyyətlə, bütövlükdə cəmiyyəti əhatə edir. Təsadüfi deyil ki, informasiya texnologiyalarının daha geniş yayıldığı ölkələr dünyanın ən qabaqcıl cəmiyyətləri sayılır və diqqət etdiyimizdə görürük ki, indi cəmiyyətimizi informasiya və kommunikasiya texnologiyaları sahəsində mühüm yenilik olan internetsiz təsəvvür belə etmək mümkünsüzdür. Bütün bunları nəzərə alaraq Azərbaycan dövləti indiyə qədər bu istiqamətdə bir sıra addımlar atıb və bunun inkişafına dair normativ sənədlər qəbul edilib. Ulu Öndər Heydər Əliyevin 2003-cü ildə təsdiq etdiyi İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya, həmçinin, cənab Prezident İlham Əliyevin 21 avqust 2004-cü ildə təsdiq etdiyi "2005-2007-ci illərdə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Dövlət Proqramı", həmçinin 22 oktyabr 2005-ci ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası və "İnformasiya cəmiyyətinin inkişafına dair qəbul edilən sənədlər İKT-nin inkişafına Azərbaycan dövlətinin diqqətlə yanaşdığını təsdiq edir.

"Elektron Hökumət"in formalaşdırılması ölkəmizdə inkişaf dinamikasını daha da artıran amillərdən biri hesab olunur və bu, dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsində yaradılan əlverişli şərait deməkdir. Elektron imza texnologiyasının tətbiq olunmasından, ölkənin şəbəkələşməsindən tutmuş, vətəndaşların və təşkilatların bir-biri ilə onlayn əlaqələr yaratmasına qədər hamısı məhz elektron dövlətin əlamətlərindəndir. Əlbəttə ki, yeni texnologiyaların meydana çıxması ilə əlaqədar, informasiya resurslarının sayının, eləcə də həcminin artması təbii haldır və insanların informasiya texnologiyalarına getgedə daha yaxından bələd olması, bu imkanlardan daha səmərəli şəkildə yararlanması onu deməyə əsas verir ki, ölkəmizdə bu iş qənaətbəxş hesab olunur.

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində görülən ən səmərəli işlərdən biri də Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzlərinin yaradılmasıdır. Bu mərkəzlərin yaradılmasının ən böyük əhəmiyyətindən biri də ölkədə bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırılmasıdır. Bu mərkəzlərin yaradılmasında ən ümdə məqsəd də vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsidir. Hazırda ölkə əhalisinin, vətəndaşlarımızın böyük əksəriyyəti bu xidmətdən yararlanır və etiraf etmək lazımdır ki, hər mənada bu xidmətdən razıdırlar.

Bir il bundan öncə Ermənistan tərəfinin təxribatlarına cavab olaraq başlayan, 44 gün davam edən və Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın dövlətinin, Azərbaycan xalqının qələbəsi ilə, 30 il işğalda saxlanılan torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən müharibədə qazanılan təcrübələr, eləcə də müşahidələr təsdiq edir ki, müasir dövrdə baş verən hərbi toqquşmalar və savaşlar zamanı qarşı tərəf üzərində üstünlük təkcə silah gücünə deyil, həm də informasiyanın, texnoloji üstünlüklərin gücünə əldə edilir. Bu üstünləri olan tərəf əlbəttə ki, qalib gəlməlidir və biz bunun əyani şahidi də olduq. Bəli, 44 gün davam edən Vətən müharibəsi zamanı xalqımız, dövlətimiz təkcə cəbhədə deyil, eləcə də informasiya və kommunikasiya texnologiyalarının imkanlarından istifadə edərək informasiya müharibəsində də öz sözünü dedi, qalib gəldi.

Təkcə müharibə dönəmində deyil, müharibə bitdikdən sonra da biz işğaldan azad olunan həmin ərazilərdə texnoloji əsasların şəhərsalmanın həyata keçirilməsi istiqamətində bir çox işlərə başlanıldığının da şahidi olduq. Məhz "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin də texnoloji imkanlarla gerçəkləşdiriləcəyi təkzib edilə bilməz. Onu da təkzib etmək olmaz ki, bu layihələr, daha dəqiq desək, texnoloji imkanlar sayəsində reallaşdırılacaq bu layihələr daha çox gəlir əldə etməyə, məşğulluq imkanı yaradılmasına, dövlət xidmətlərinə çıxışın təmin olunmasına töhfələrini verəcək. Elə məhz buna görə də nəzərdə tutulan bu sözügedən layihənin bütün dünyanın diqqət mərkəzində olması da təsadüfi deyil, hansı ki, bu layihələr informasiya və kommunikasiya texnologiyaları sayəsində reallaşmaqdadır.

Təbii ki, rəqəmsallaşma və elektron xidmətlərdə əldə etdiklərimiz cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə aparılan islahatların məntiqi nəticəsidir. Əlbəttə ki, rəqəmsal iqtisadiyyat quruculuq istiqamətində müһüm bazanı istər dövlət, istərsə də özəl sektor tərəfindən icra olunan proqramlar formalaşdırır və mövcud resurslardan, qabaqcıl dünya təcrübəsindən istifadə etməklə qısa zamanda Azərbaycanın regionun rəqəmsal mərkəzinə çevriləcəyi şübhə doğurmur.

***İnam Hacıyev***

# Kreml İrəvana qulaqburması verəcək

## Nökəri onun sözünə baxmır və şuluq edir

Moskva ilə İrəvan arasında növbəti "dalan siyasəti" yaşanmağa başlayıb. Belə ki, artıq KİV-lərdə də getmiş məlumata görə İrəvanda Ermənistanın müxalifətçi "Sasna srer" adlı radikal və terror ab-havası əsdirən partiyasının "Milli-demokratik qütb" radikal-millətçi hərəkatı ilə birgə anti-Rusiya xarakterli mitinq-yürüşü keçirildi. Üstəlik, Rusiyanın, rusların, əsasən də ölkə prezidenti Vladimir Putinin ünvanına ağır təhqirlər, söyüşlər şüar olaraq səsləndirildi. Lakin maraqlısı budur ki, Ermənistanın mövcud hakimiyyəti həmin mitinqə qarşı hər hansı ciddi tədbir görmədi, halbuki sözügedən aksiya sanksiyalaşdırılmamış idi. Bu baxımdan da hesab etmək olar ki, Paşinyan hökuməti əslində Moskvaya olan əsəbini dolayısı ilə müxalifətçilərlə əlbir olmaqla, daha doğrusu bu vasitə ilə ilə çıxıb.





**Ermənistandakı revanşçılar hələ də anlamırlar ki...**

Yəni sirr deyil ki, Ermənistan 44 günlük Qarabağ müharibəsində müttəfiqi Rusiyadan istədiyi dəstəyini ala bilmədi, hansı ki, Moskva İrəvanı köhnə də olsa silahla-sursatla təmin edirdi.Nəticədə Arazboyudan başlayaraq Şuşaya qədər torpaqların işğaldan azad edilməsi, bunun ardınca ermənilərin Kəlbəcərdən, Ağdamdan, dəhlizi çıxmaqla Laçının böyük qismindən rədd edilmələri günü bu gün də Ermənistan rəhbərliyini qıcıqlandırmaqdadır.

Ancaq Ermənistandakı revanşçılar hələ də anlamırlar ki, onların ölkə olaraq tamamilə xəritədən silinmələrinin qarşısını alan, yəni onları xilas edən də məhz Rusiyadır.

Maraqlıdır ki, ermənilər buna görə öz "təşəkkürlərini" İrəvanın mərkəzində, Rusiya səfirliyi yaxınlığında və RF prezidentini söyməklə, nümayişkaranə qaydada bildirdilər. Əslində, bu gün kənardan baxanda elə sanılır ki, Moskva ilə İrəvan arasından "su da keçmir", əsl müttəfiqlik mövcuddur və s. Amma reallığa qalanda hər şey tamamilə əksinə cərəyan edir.

**Ermənistana veriləcək qulaqburmanın Azərbaycana hansı səmərələr verəcəyini zaman göstərəcək**

Məsələn, MDB sammiti ərəfəsində erməni tərəfi azərbaycanlı hərbçini snayper silahından açılan atəş nəticəsində qətlə yetirməklə yanaşı, bir neçə təxribatlar seriyasını həyata keçirdi, özü də Rusiya sühməramlıları kontingentinin Qarabağda məsul olduqları ərazilərdə. Eləcə də feyk xəbərlər yayıldı ki, guya Azərbaycan Silahlı Qüvvələri ilə Rusiya sülhməramlıları arasında "atışma" baş verib, nəticədə ruslardan bir neçə nəfər öldürülüb və s. !

Bəli, bu həm də Azərbaycana qarşı açıq-aşkar təxribat məqsədli plan idi, lakin Paşinyan və onun komandası daha çox və məhz radikal müxalifətin əli ilə Rusiyaya, onun sülhməramlılarına qarşı təxribat törətdi. Moskva isə onun sözünə qulaq asmayan nökərlərini bağışlamır, belədirsə, onda Kremlin Ermənistana köklü qulaqburması verəcəyini indinən demək mümkündür. Bu qulaqburmanın isə Azərbaycana hansı səmərələr verəcəyini yəqin ki, çox yaxınlarda zaman özü göstərəcək. Gözləyirik...

***Rövşən RƏSULOV***

# Prezident İLHAM ƏLİYEV: "Mənə güc verən, məhz xalqımızın əzmkarlığı idi"



**"Mənə güc verən, məhz xalqımızın əzmkarlığı idi. Bu torpaqları görməyən cavanlarımız bu torpaqlar uğrunda ölümə gedirdilər. Bu, xalqımızın böyüklüyünü bir daha göstərir". Bu fikirləri Prezident İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Qələbəmizi şərtləndirən amillərdən danışarkən bildirib.**

"Biz həmişə bir arzu ilə, bir fikirlə yaşamışdıq ki, gün gələcək, ədaləti bərpa edəcəyik, xalqımızın üstündən "məğlubedilmiş" sözünü atacağıq, qürurlu xalq kimi, müzəffər xalq kimi yaşayacağıq və bu gün gəldi. Əgər xalqımız buna inanmasaydı, əgər cəmiyyətimiz bizim o sahədəki siyasətə dəstək olmasaydı müharibəni bu nəticələrlə başa vurmaq çox çətin olardı. Ona görə, bu bizim hamımızın qələbəsidir, hamımızın təntənəsidir", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Öz gücünə və liderinə güvənən xalq yenilməzdir

Bəli, öz gücünə və liderinə güvənən xalq yenilməzdir. Çünki bütün məqamlarda Azərbaycan xalqı möhtərəm Prezidentimizin ətrafında yumruq kimi birləşibdir. Çünki bizim yolumuz haqq yoludur. Ölkə Prezidentinin qeyd etdiyi kimi, biz müharibə istəmirik. Amma Azərbaycanın işğal altında olan torpaqlarını istənilən yolla azad etməsi onun suveren hüququdur: "Çox qürurverici haldır ki, Azərbaycan Ordusu üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə qadir olduğunu nümayiş etdirir. Düşmənin təxribatlarının qarşısını layiqli cavab tədbirləri ilə alan ordumuz hansı imkanlara malik olduğunu bir daha işğalçı dövlətə göstərir. Düşmən müzəffər Azərbaycan Ordusundan aldığı cavabı, zərbəni uzun müddət unutmayacaq".

Çünki xalqımız tam əmindir ki, dövlətimizin uğurlu siyasəti, Azərbaycan Ordusunun gücü, qüdrəti nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapmacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, ölkəmizin həyatında, inkişaf tarixində yeni bir mərhələ başlayacaq. Azərbaycan Prezidentimiz hər zaman bildirir ki, xalqa arxalanır, xalqdan güc alır. Təbii ki, hər zaman xalqının yanında olan, onun daha yaxşı, təhlükəsiz şəraitdə yaşamasını istəyən, Azərbaycanın ən yüksək zirvələri fəth etməsi üçün təkmil islahatlar həyata keçirən, ən əsası Azərbaycanın sözünü imzası qədər dəyərli edən ölkə Prezidentinə milyonların sevgisi, dəstəyi şəksizdir. Xalq-iqtidar birliyi fonunda hər bir çətinlik dəf edilir, qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olunur.

Ali Baş Komandanımız xalqımıza hər müraciətində bəyan edir ki, biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Xalqımız daim dövlətimizlə, suverenliyimizin qarantı olan ordumuzla birlikdədir

Prezident İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib: "Bizi həm müharibədən əvvəl, həm müharibə zamanı, həm də bəziləri müharibədən sonra hədələməyə çalışırdılar və çalışırlar. Amma bütün bu səylər puça çıxdı. Çünki heç kim bizim iradəmizi əyə bilməz. Biz qeyri-bərabər savaşa, qeyri-bərabər mübarizəyə hər an hazırıq, ölümə getməyə hazırıq, amma öz ləyaqətimizi, öz qürurumuzu, öz müstəqilliyimizi heç kimə güzəştə getməyəcəyik. Bunu hər kəs bilsin".

## Tarixi ədaləti bərpa etmiş Azərbaycan ordusu-xalq birliyi

Bəli, 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz işğal altında olan torpaqlarımızın azad edilməsi ilə yanaşı, 30 illik həsrətin başa çatması və itirilmiş milli qürur və şərəfimizin geri qaytarılması ilə nəticələnmişdir. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab prezident İlham Əliyev və rəşadətli Azərbaycan ordusu Vətən müharibəsində, sözün əsl mənasında, can qoydular. Bu 44 günlük məşəqqətli müharibədə bütün çətinliklərə səbrlə sinə gərdilər. Azərbaycan bütün dünyaya sübut etdi ki, o, özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə azad etdi və tarixi ədalət müvəffəqiyyətlə bərpa olundu. Bu, Prezident İlham Əliyevin son 18 il ərzində həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasına daxil edilib. Məhz xalq-iqtidar-ordu birliyinin nəticəsidir ki, bu gün xalqımız başını uca tutur, xalq olaraq Ali Baş Komandanın dediyi kimi, "bir yumruqda birləşə bildik". Necə deyərlər, biz ordusu olan yox, milləti ordu olan dövlətik!

Azərbaycan Prezidentinin Füzuli ictimaiyyətilə görüşü zamanı dediyi kimi: "Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz... Oktyabrın 18-də Azərbaycan Silahlı Qüvvələri Xudafərin körpüsünə çıxdı və Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı. Xudafərin körpüsü Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan xalqının istedadının sübutudur. Biz Azərbaycan xalqına məxsus olan bu möhtəşəm memarlıq əsəri ilə haqlı olaraq fəxr edirik. Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik".

Bəli, müzəffər Ali Baş Komandan İlham Əliyevin indi böyük dövlət xadimi və Azərbaycan xalqının lideri kimi əsas missiyası dövlətin və xalqın gücü ilə düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılmasıdır. Bu qayıdış Böyük Qayıdış olmaqla təkcə azərbaycanlıların Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlarına qayıdışını əhatə edəcəkdir. Çünki Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***



# Ceyhun Bayramov slovakiyalı həmkarı ilə görüşüb

**Oktyabrın 19-da xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda rəsmi səfərdə olan Slovakiya Respublikasının Xarici və Avropa işləri naziri İvan Korçok ilə görüşüb. Xarici İşlər Nazirliyi Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər arasında təkbətək başlayan görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə davam edib.**

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Slovakiya arasında siyasi dialoqu yüksək qiymətləndirərək, ikitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə uğurla inkişaf etdiyini bildirib. İki ölkə arasında əməkdaşlığın bir çox sahələrdə inkişafı potensialı vurğulanıb. Hər iki ölkənin münasibətlərinin əsasında beynəlxalq hüququn prinsipləri, xüsusilə də suverenlik, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı prinsiplərinin dayandığı bir daha vurğulanıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən İvan Korçok Azərbaycan Respublikasının Prezidenti ilə görüşə və aparılan müzakirələrə məmnunluqla istinad edib. Ərazi bütövlüyünə hörmət prinsipinin Slovakiya üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Qarşılıqlı səfərlərin münasibətlərin inkişafına təkan verdiyini söyləyən nazir bu xüsusda Azərbaycan Milli Məclisinin sədrinin Slovakiyaya səfərini qeyd edib. Nazir Korçok iqtisadi münasibətlərin inkişafı potensialını vurğulayıb, bu istiqamətdə birgə səylərin və konkret tədbirlərin həyata keçirilməsinin əhəmiyyətini bildirib. O, ölkəsinin Azərbaycan tərəfindən aparılan bərpa və quruculuq prosesində iştirakı marağını ifadə edib.

Nazir Ceyhun Bayramov slovakiyalı həmkarına bölgədə mövcud olan son vəziyyət, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri barədə məlumat verib. Slovakiyadan sifariş əsasında alınacaq minatəmizləmə maşınlarının ilk hissəsinin yaxın zamanda Azərbaycana gətiriləcəyi qeyd olunub. Ermənistanın dəqiq mina xəritələrini Azərbaycana təqdim etmədiyi və mina təhlükəsinin insanların həyatına birbaşa təhdid doğurmaqda davam etdiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

# Bakı Zooloji Parkından maraqlı görüntülər - VİDEOREPORTAJ




**Oktyabrın 7-də IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidənqurmadan sonra Bakı Zooloji Parkı qapılarını ziyarətçilərin üzünə açıb. Təxminən 4 il davam edən əsaslı yenidənqurma işləri nəticəsində Bakı Zooloji Parkı ən müasir səviyyəyə çatdırılıb. Buraya ilk daxil olan andan yenilənməni hiss etmək mümkündür. Hər tərəf yaşıllıqla əhatə olunub, hər heyvana uyğun şərait yaradılıb.**

Zooparkın əsas məqsədi insanlar üçün canlı aləm, xüsusən də Azərbaycanın nadir faunası haqqında məlumat əldə edə biləcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevrilməsindən ibarətdir. Parkın kolleksiyasında 125 növ heyvan var ki, onlardan 22-i Azərbaycan Respublikasının "Qırmızı kitabı"na düşmüş növlərdir.

SƏS TV-nin əməkdaşları Bakı Zooloji Parkında olub və maraqlı görüntüləri kameranın obyektivinə köçürüb. Daha ətraflı videoda tanış ola bilərsiniz:

ARAŞDIRMA

# Gənc xanımların işə qəbul elanlarının arxasında nələr dayanır?



**Keçmişdən bu günə qədər qadınlar bir çox səbəbdən əmək bazarına girirlər. Yaşamaq çox çətindir və insanlar bir çox maneələrlə üzləşir. İnkişaf səviyyəsinə görə fərqliliklər olsa da, dünyanın bir çox ölkələrində qarşılaşılan maneələr oxşardır. Ölkənin inkişaf səviyyəsi, sosial və iqtisadi quruluşu və bazara girəcək qadının ixtisaslı olub-olmaması önəmli məqamlardandır.**

Heç düşünmüsünüzmü ki, bəzi iş elanları niyə qadın kadrlar axtarır? Birinci səbəb qadınların bir obyekt olaraq sui-istifadə edilməsinə əsaslanır. Məsələn, iş satış-marketinq işidir. Bəzən bu işdə çalışacaq qadından qısa ətək geyinməsi tələb olunur. Burada məqsəd qadınlıq xüsusiyyətlərindən istifadə edərək satış həcmini artırmaqdır.

Eyni vəziyyət müştəri nümayəndəsi (Çağrı Mərkəzi) vəzifələrində də yaşanır. Bu şirkətlər, ümumiyyətlə, qadın işçilər istəyir. Bunun yeganə səbəbi qadın səsi ilə qarşı tərəfi təsirləndirmək, sakitləşdirmək, inandırmaq və qarışdırmaqdır.

Cəmiyyətdə nifrət edilən təmizlik, qab - qacaq, çay və şorba kimi işlərə yalnız və yalnız qadın rəva bilindiyi üçün "Ofis köməkçisi" adı ilə qadın işçi axtaran insanları görmək daha çox mümkündür.

Digər bir səbəb isə qadınlara söz keçirmək daha asandır deyə düşünürlər. Qadınlar genetik olaraq daha kövrək, daha zəif və incə quruluşa sahib olduqları üçün şanslıdırlar. Bu səbəbdən, yalnız qadınlara gücü çatan, təhsilsiz kişilərdəki bu primitiv üstünlük zaman -zaman gizli motivlərə çevrilə bilər. Daha asan istismar etmək üçün qadın işçilər axtarırlar. Təəssüf ki, pis niyyətli, qadınları bəhanə sayan, qadını cinsi bir obyekt olaraq görən və hər cür pozğunluqları xəyal edənlərin sayı kifayət qədər çoxdur.

Türkiyənin Torbalı, Kocaeli və Çanaqqala bölgələrində həyat yoldaşları ölən, kimsəsiz və möhtac qadınları toplayaraq işə götürən Sürətli İstehsal Fabrikləri var. Bu fabriklərdə yalnız qadın işçilər seçilir. Onlar təmizlik, qabyuyan və istehsalçı kimi işlərdə minimum əmək haqqı üçün çalışırlar. Eyni zamanda, bu vəziyyətdə olan qadınlar, ümumiyyətlə, xəstəxanalarda baxıcı və otellərdə döşəmə təmizləyici olaraq çalışırlar.

İşlərdə və peşələrdə ayrı-seçkilik mağara mədəniyyətidir. Bu Yaxın Şərq ənənəsidir. Bir cəmiyyətdə kişilər qadınların etdiklərini, qadınlar da kişilərin etdiklərini çox asanlıqla edə bilərlər. Önəmli olan, önyarqı və ayrı -seçkilik etmədən lazımi təhsili təmin edə bilməkdir.

Ümumiyyətlə, qadınlar satış və marketinq şöbələrində maraq obyekti kimi istifadə olunur.

Cinsiyyət, kişilər və qadınlar üçün sosial olaraq qurulmuş və öyrənilmiş, qadınlar və kişilər üçün gözləntiləri və davranış və fəaliyyətləri ifadə edən bir anlayışdır.

Çalışmaq, iş və ailə kimi görünən ayrı anlayışları balanslaşdırmaq lazımdır. Çünki cəmiyyətin təyin etdiyi kişi qaydaları və rolları çərçivəsində hərəkət etməyən qadınlar qaydalara tabe olmaq məcburiyyətində qalırlar və ya cəmiyyətdən kənarda qalırlar.

Qadınların çalışmasının bir çox ölkənin inkişafına təsiri vacibdir. Əmək bazarında olan qadınlar və onların qarşılaşdıqları maneələrin ardı-arası kəsilmir.

İnsanlıq yarandıqdan bəri qadınlar iş həyatında kölə və ya usta şagirdi kimi çalışırlar. Qadınların iş həyatına girmələri 18-ci əsrin sonlarına təsadüf edir. 20-ci əsrin birinci onilliyində yüksək rəhbər vəzifələrin 20% -ni qadınlar təşkil edirdi. 1970-ci illərdən etibarən qadınların beynəlxalq işçi qüvvəsindəki payı əhəmiyyətli dərəcədə artdı. Bu qadınların iqtisadi aktivlik nisbətlərinin artmasına səbəb oldu. Müasir mənada qadınların muzdlu işçi statusu alaraq iş həyatına girməsi Sənaye İnqilabıdır. Sənaye inqilabı ilə birlikdə istehsalın təşkilinə ehtiyac yarandı və aşağı əmək haqqı ilə işləyə biləcək işçi ehtiyacı ən əhəmiyyətli faktor oldu.

İş həyatında gender bərabərsizliyinin ən əhəmiyyətli göstəricilərindən biri, kişilərin hazırladığı bir dünyada qadınların ehtiyac duyduğu infrastrukturun olmamasıdır. Sosial bərabərlik mövzusunda hədəflərə çatmaq üçün qurumların infrastruktur dəyişikliklərinə ehtiyacı var.

SİA niyə iş yerlərində qadınlara üstünlük verilməsi ilə bağlı araşdırma apararaq sosioloq və psixoloqların məsələ ilə bağlı fikirlərini öyrənib.



**<u>Psixoloq Mahuxanım Teymurova:</u>** "Qadınların işə tələb olunmasının əsas səbəblərindən biri xarici görünüşdür. Xarici görünüşü gözəl olan qadınlar daha tez işlə təmin olunurlar. Yəni iş sahibi olmaqda, digər insanlardan bir addım öndədirlər. Bunun səbəbi də vizual olaraq gözəlliyin insana xoş təəssürat bağışlamasıdır.

Bununla yanaşı, qadınlar daha emosional varlıqlar olduğu üçün bir mövzu, məhsul haqqında ətraflı danışa bilirlər. Kişilərdə isə bu belə deyil. Məsələn: qadın bir gününü tam detaylı danışdığı halda, kişilər sadəcə qısa konkret olaraq günün necə keçdiyin danışırlar. Bu xüsusiyyət də qadınların işə tələb olunmasının digər səbəblərindən biridir. Bunlarla yanaşı alıcının çoxu qadın olduğu üçün qadın satıcıya üstünlük verirlər. Çünki qadınlar bir-birinin nəyə ehtiyyacı olduğunu, nələrin daha çox istifadə olunduğunu, geyinildiyini daha yaxşı anlayırlar. Qadının qadınla empatiya qurması daha yaxşı olduğu üçün də qadınlar bir-birilərin daha yaxşı anlayırlar".

**<u>Sosioloq, Sağlam Cəmiyyət Hərəkatının sədri Lalə Mehralı:</u>** "Bəzən görünüşünə görə qadın işçi tələb olunur. Xidmət sektorunda adətən qadın işçi axtarırlar. Bu, bir növ marketinq siyasəti kimi, yəni qadın ofisiant və ya qadın dəzgahdar olanda daha çox müştəri cəlb edəcəyini düşünürlər. Bir səbəbi budur.

Başqa bir səbəbi də odur ki, qadınlar daha az maaşa qane olurlar. Çünki ailə başçısı 300-500 manata işləyəndə ailəsinə baxa, onu dolandıra bilmir. Amma ailə başçısı başqa işdə işləyirsə, bununla bərabər evin xanımı da ailə büdcəsinə kömək etmək məqsədilə işləyirsə, o, 300-500 manata qane olur. Çünki evə xanımın maaşından əlavə başqa maaş da gəlir. Yəni xərclərini tam ödəməsə də, müəyyən dərəcədə qane olaraq razılaşır.

Bir səbəbi də o ola bilər ki, qadınları idarə etmək daha asandır nəinki kişi işçiləri. Kişi işçilər adətən davaya, aqressiyaya qarşı meyilli olurlar. Tutalım, onları idarə etmək, göstəriş vermək nisbətən problemli olur. Amma qadın işçilər sakit, başıaşağı, yəni üzüyola olurlar. Bu baxımdan da qadınları idarə etmək məqsədilə qadın işçi tələbatı daha çoxdur".

**<u>Sosioloq Əhməd Qəşəmoğlu:</u>** "Bu sual ətrafında ölkəmizdə tez-tez neqativ fikirlər yaranır. İnsanlar düşünür ki, qadın işçi axtarılmasının səbəbi qadınlardan sui-istifadə və yaxud başqa pis məqsədlər üçün istifadə etməkdir. Çox təəssüf ki, bu hallar da var. Müəyyən qism adamlar sırf bu məqsədlə qadın işçi axtarırlar. Lakin böyük bir qrupa da həqiqi olaraq qadın işçi lazımdır. Çünki elə işlər var ki, o sırf qadın üçündür. Ofislərdə



çox vaxt elə işlər olur ki, o qadın əməyi tələb edir. Burada qeyri-adi səbəblər axtarmaq lazım deyil.

Kişilər özləri kifayət qədər fəaldırlar. Onlar harada imkan varsa, əlaqə yaradaraq o iş yerlərini tapırlar. Digər bir məsələ isə son illər xanımlar iş sahəsində daha fəal olublar.



Hal-hazırda mənim əlaçı tələbələrimin 80 faizi qızdır.

Həmçinin, qadınlar işə daha məsuliyyətli yanaşırlar. Kişilər daha çox gəlirli işlərə meyillidirlər. Amma ofis işlərində qadınlar daha çox diqqətli olub bu işin öhdəsindən gəlirlər.

Ölkədə son 30-40 ildə elə bir xaotik dövr yarandı ki, oğlan uşaqlarımızda hadisələrə bir qədər etinasız münasibət faktoru gücləndi. Neqativ hallar da var. Amma bu, bütün elanlara aid deyil".

**<u>Şəhər sakinləri də məsələyə öz münasibətini bildirib:</u>**

Şəhər sakini Aqil Qarazadə: "Şəhərdə yaşayıram. İş axtarıram və hər yerdə yazılır ki, qadın işçi axtarılır. Heç bir yerdə kişi işçinin axtarıldığı yazılmır. Həmişə xanım, xanım. Bu yanlış məşğulluq forması kişiləri işsiz qoyur. Bunun səbəbi qadınların özləri haqqında düşünmələri və empatiya qura bilməmələridir".

**<u>Şəhər sakini Fehruz Rzayev:</u>** "Qadınlar ağır, riskli işlərdə işləmək istəmirlər. İstədikləri tək şey masa, rahat və asan bir işdir. Özlərini kişilərdən üstün hesab edirlər. Belə bir məşğulluq forması kişiləri işsiz qoyur. Qadınlar inşaat, gəmiqayırma və mədənlərdə də işləməlidir. Yük maşını sürücüsü, avtobus sürücüsü, küçə süpürgəçisi kimi işlərdə də işləməlidir. Kişilər bunları etməməlidir".

**<u>Şəhər sakini Aliyə Sadıxova:</u>** "Bir kafe var. Kafedə həmişə elan qoyulur ki, "qadın işki axtarılır". Ofisiantların hamısı yüksək maaşlı qadınlardır. Bir nəfər də kişi yoxdur. Bu kişilərə qarşı ayrıseçkilikdir, cinsiyyətçilikdir. Ən pisi də budur ki, kişi müdirlər belə olmasını istəyirlər. İnsanın ən pis düşməni yenə insandır".

**<u>Şəhər sakini Banu Hüseynli:</u>** "Dekolte və mini ətək üçün qadın işçi axtarırlar. İşəgötürənlərimiz (kişilər) çox əxlaqlı olduqları üçün kişi işçilər axtarmırlar. Qəşəng geyinən və özlərinə qulluq edən cazibədar və istedadlı qadın işçilər axtarırlar.

Kişilər iş həyatında maddi problemlərə daha çox meyillidirlər, maaşım çatmır və s. Məsələn, qadınlar əldə etdiyi gəlirlə necə məşğul olmağı bilirlər, üstəlik, onları kişi işçilərdən daha asan idarə edə bilirlər. Buna görə də işəgötürən haqlı olaraq qadın işçiləri üstün tutur. Əks halda maaş, maliyyə problemləri və s.olur".

***Ayşən Vəli***

# Zəmanəmizin manqurtları...

## Düşmən çətiri altına sığınan satqınlar qanun qarşısında cavab verməlidirlər

“Vətən üçün pis olan, mənə faydalıdır”. Bu, radikal müxalifətin ”düşüncəsidir”. Qərbə təzim edən bəsit təfəkkürlü antimilli ünsürlərin ölkəmizin uğurlarına, xalq-iqtidar birliyinin möhkəmlənməsinə, bir yumruq kimi birləşməsinə xələl gətirməkdir. Bu xəyanət, satqınçılıq deyilmi? Tarixin bütün dönəmində xəyanət və satqınlıq bağışlanmaz cinayət olub. Ələlxüsus da bu xəyanət və satqınlıq xalqına, dövlətinə və Vətənə qarşı ola. Xəyanət edən heç bir şəxsə haqq qazandırılmayıb, heç kim bağışlanmayıb. Belə bir deyim var, deyərlər ki, xəyanətin və satqınlığın ömrü az olduğu kimi, onu həyata keçirənlərin də ifşası hər zaman mütləq xarakter daşıyır. Xüsusilə də, bu xəyanət və satqınlıq dövlətə, xalqa, dövlətçiliyə, insanların rifahı və təhlükəsizliyinə qarşı çevrilirsə, belə əməllər və onun icraçıları nəinki ifşa olunmalı, hətta vaxtında layiqli ictimai cavabla qarşılaşmalıdır. O zaman kor, kar, ancaq danışmaqda son 18 ildə əldə olunan uğurlara iftira atan şəbəkə əxlaqsızları...



### Hafiz Hacıyev: ”Sosial şəbəkə əxlaqsızları 27 ildir ki, bugünkü dövlətə qarşı böhtan, şər atsalar da, xalq dövlətinə inanır”

”Xüsusilə bu günlərdə Prezident İlham Əliyevin video-müşavirədə ciddi məsələlərə toxunması və onlardan ən başlıcası siyasi ishatların aparılması, ölkədə gedən siyasi proseslərlə iqtisadi proseslərin uzlaşdırılması və müxalif partiyaların qanunvericilik hakimiyyətində iştirakı məsələsi ilə bağlı bu satqın və əxlaqsızların yenidən sosial şəbəkələrdə böhtan xarakterli çıxışlar etməkdədirlər. Ancaq hələ də anlamırlar ki, xalq onları çoxdan arxivin zibilxanasına atıb. Çünki xalq ölkə başçısın hakimiyyətdə olduğu son 18 il ərzində hər bir vətəndaşın qayğısına qaldığının şahidi olub. Və bu gün də hesab edirəm ki, istər dünyanı ağuşuna alan koronavirus pandemiyası ilə bağlı görülən işlər və atılan addımlar, istərsə də Tarif Şurasının qərarı ilə qazın, işığın qiymətinin artırılması ilə bağlı. Və bu gün hər bir Azərbaycan vətəndaşı ölkə başçısının gördüyü işlərin şahididir. Ancaq bu gün sosial şəbəkə əxlaqsızları Azərbaycan dövlətinin gördüyü uğurlara böhtan ataraq ”mitinq” çağırışları edirlər. Çünki bunlar - Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Vidadi İsgəndərli, Sevinc Osmanqızı kimi viruslar xaricdən idarə olunanlardır. Xalq belələrini çoxdan tarixin zibilxanalarına atıb. Azərbaycan xalqı ağıllı xalqdır, ağı qaradan seçməyi bacarır”.

### Belə olan halda sosial şəbəkənin ”xalq yanğısı” Sevinc Osmanqızı

Həmişə belə olub, indi də belədir. Özünü ”xalq yanğısı” kimi göstərən, bütün mənliyini dollara, avroya, funt sterlinqə satan Sevinc Osmanqızı erməniləri müdafiə etməkdən yorularaq, indi də ”xalq yanğısı” ilə ”çıxış yolu mitinqlərə çıxmaqdır” çağırışını edir. Ancaq anlamır ki, hər dəfə belə şou göstərməklə bir daha ermənidən betər olduqlarını göstərir. Bu təəccüb də doğurmur, çünki o oyun qalmayıb ki, çıxmayasınız. Ancaq anlamırsınız ki, bu gün sosial şəbəkədə səsinizi və üzünüzü görən kimi, tamaşaçı ”odboy” edir. Bax, nankor və bədbəxtlik buna deyirlər. Çünki ermənilər kimi, bu virusların, özü də Sevinc Osmanın qızı kimi şəhid atasının ruhuna qiymət verməyən satqın, ermənidən də betər olanın ”vətən yanğısı”nı bu xalq, bu Vətən, bu dövlət yaxşı bilir. Guya ”vətən”, ”xalq” üçün ağlayır? Yadında saxla: hər kəs ağlaya bilməz. Eks-spiker Rəsul Quliyev demişkən, sizin kimi mənəviyyatsız və satqınlar öz qəbirlərinizi çoxdan qazmısınız. Ancaq narahat olmayın, siz o şəbəkədə çırpına-çırpına qalacaqsınız. Və sürünə-sürünə bu dövlətin ayağına gələcəksiniz, bu xalqın, bu Vətənin torpağını yalamaq istəyəcəksiniz. Ancaq bilməlisiniz ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin, həm də düşmənin yalı ilə bəslənənləri nə tarix, nə də bu xalq heç vaxt bağışlamır. Çünki sizin kimi satqınların qatarı çoxdan gedib...Və bu gün xalqımız ölkəmizdə gül kimi iş yerləri açılır, müəssisələr fəaliyyət göstərir, xalq da bu yaşayışdan narazı deyil. Və tezliklə bu şantajçılıqla məşğul olan erməni yalaqları, satqınları düşmən çətirinin altına sığınıb öz xalqına, dövlətinə, ordusuna qarşı yalan və iftira atan, birbaşa düşmən qoltuğuna sığınan xəyanətkarlar bilməlidirlər ki, etdikləri əməllərinə görə mütləq cavab verməli olacaqlar - özü də Azərbaycan xalqı və qanunları qarşısında!

***Rəfiqə HÜSEYNOVA***

# Ermənistan niyə “Qafqazın lideri” ola bilmədi?

...Cənubi Qafqazın inteqrasiya perspektivi, təcavüzkar təbliğatla müşayiət olunan bölgədə uzun illər davam edən münaqişələr səbəbindən hələ də çoxlarına xəyali olaraq görünür. Bu gün istisnasız olaraq bir yerdə yaşam tərzini rədd edən erməni təbliğatı həmişə Azərbaycana qarşı təcavüzünü ”Qarabağın mədəni irsinin qorunması üçün müdafiə siyasəti” kimi təqdim edib və hətta utanmadan bunu ”əsaslandırmağa” da çalışıb.



Təbii ki, hazırda Cənubi Qafqazın heç bir respublikası qonşularına qarşı düşmənçilik niyyətlərindən açıq şəkildə danışmırlar, lakin ardıcıl olaraq öz əhalisini ”növbəti müharibəyə” hazırlayırlar. Yəqin ki, söhbətin erməni tör-töküntülərinin hərbi-siyasi doktrinasından getdiyini başa düşdünüz.

Xatırladım ki, hələ o vaxt, postsovet məkanında Ermənistan 15 müttəfiq respublikalar arasında 14-cü sırada dayanırdı. Yəni, demək istəyirəm ki, bu ölkə həmişə yedəkdə gedən və buna öyrəncəli bir respublika olub. Amma buna baxmayaraq, iddiaları həmişə boyundan yuxarı olub. Deyim ki, digər respublikalardan fərqli olaraq, ermənilərin bu ”yekəxanalıqları”nın cavabını Kreml elə o vaxtlar da ”adi hal kimi qəbul edib”. İndi belə görünür ki, bütün bunların əsası varmış.

Beləliklə, xatırladaq: o vaxt ”qonşudan qalma dala” prinsipi ilə yaşayan ermənilər 1991-ci il sentyabrın 21-də ”müstəqillik” əldə edib guya ”müstəqil bir dövlət” oldular. Daha sonra 1998- ci il fevralın 3-də ”müstəqil” dövlətin ”müstəqi” prezidenti Levon Ter-Petrosyan məcburən ”təxtdən salınıb” istefaya göndərildi. Təbii ki, bunun da əsası vardı, yəqin ki, siz bir müddət bundan əvvəl erməni baş nazir Nikol Paşinyanın Qarabağ münaqişəsinin tarixinə toxunarkən separatçı qurumun beynəlxalq səviyyədə tanınması şansının hələ 1998-ci ildə əbədi itirildiyini xatırlamış olarsınız... Nə isə, bu, artıq başqa yazının mövzusudur...

Daha sonra, 2018-ci ildə bu dəfə Ermənistanda ”məxməri inqilab” baş verdi. Amma təəssüflər ki, Nikol Paşinyanın hakimiyyətə keçməsi xarici siyasətin düşüncə modelində nəinki erkən, heç gələcək üçün dəyişikliyə ümid yaratmadı. Nikolun Ermənistanı tezliklə ”bölgənin lideri”, ”Qafqazın İsraili” edəcəyi barədə iddia dolu dediyi cəfəngiyyat da sonradan özünü doğrultmadı.

Məsələ bundadır ki, bu gün artıq küçədəki adi bir erməni də Ermənistanın tək başına dirçəlişinin mümkünsüzlüyünü anlayır. Axı, erməni diasporunun və ya təsadüfi kimlərinsə göndərdiyi ianələrlə nə qədər yaşamaq olar? Təbii ki, bu gün ermənilərə ianə göndərənlər bunu ”müfi” etmirlər, əslində, onlar da bölgədə öz maraq və siyasi elitalarını güdürlər.

Amma kimə deyəsən? Reallıq budur ki, bu gün ”nəqliyyat blokadası” ermənilərin az-çox olub-qalan sənayesinin məhvinə gətirib çıxarmaqdadır. Hazırda erməni gənc nəsil qazanc və xarici təhsil almaq perspektivləri üçün ölkəni tərk etməyə çalışır. Ölkəni tərk edə bilməyən ermənilər isə, Cənubi Qafqazda millətlərarası ünsiyyət qurma qabiliyyəti olmadan statik bir həyat tərzinə doğru irəliləyirlər.

Təbii ki, bu gün ermənilərin azərbaycanlılarla eyni tarixi və mədəni məkanda yaşamağın mümkün olmadığı barədə erməni təbliğatının tətbiq etdiyi stereotipin zərərini sübut etməyə elə də ehtiyac yoxdur. Bundan əlavə, ermənilər başa düşməlidirlər ki, belə bir təbliğat elə onların özünə, dəqiq desək, ilk növbədə, Qarabağın azsaylı da olsa, erməni icmasına qarşı yönəlib.

***Ağasəf Babayev***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# “İsa, sən Allah qayıt, zühur et!”

**Bugünlərdə çoxdandır ki, ortalıqlarda görünməyən Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərin kiçik bir açıqlaması ilə qarşılaşdım. Deyir ki, partiyanın sıravi üzvü olmasından ”şərəf” duyur, lakin bu gün başqanlıq postuna qayıtması barədə niyyəti yoxdur və s.**

İsa Qəmbər xatırladıb ki, Müsavat partiyası 2014-cü ildə ”nümunə” (?) ortaya qoyub: ”Düşünürük ki, eyni adamların eyni vəzifədə uzun müddət qalmasına son qoymaq, dəyişikliklərə yol açmaq lazımdır. Bu, dövləti zəiflədən amildir”. Görün ha, dövlət haqqında düşünür, özü də 2003-cü ilin oktyabrında dövləti xarici qüvvələrin əli ilə devirməyə, satmağa hazır olan birisi!

Əlqərəz, maraqlı və düşündürücüdür, eyni adamların bir siyasi partiyanın rəhbərliyində ”uzun müddət” qalması deyərkən İsa Qəmbər neçə ili nəzərdə tutur? 23 ilimi? Axı bildiyimiz qədər onun özü partiyaya 22 il (!) başqanlıq edib, özü də sərasər. Deməli, onun üçün bir partiyanın rəhbərlik postunu tutmaq 22 ili əhatə edirsə, bu, qısa müddət, 23 ili əhatə edirsə, bu da uzun müddətiymiş? Görün ki, 1 ilin nə qədər böyük kəraməti var imiş siyasət aləmində!

Əslində, Müsavat partiyasının zəifləməsinin də səbəblərindən biri məhz İsa Qəmbərin bütövlükdə 20 ildən artıq zamanda adıçəkilən siyasi təşkilata rəhbərlik etməsi olub və bu barədə uzun-uzadı, gecəli-gündüzlü danışmaq olar. Ona görə də bu məsələnin üzərindən sürətlə keçir və onun digər iddiasını ələk-vələk edirik. İsa Qəmbər utanmaz-utanmaz özünün yaratdığı feyk, yəni saxta ”Müsavatını” tarixi Müsavat partiyasınının davamçısı kimi zorla ictimai rəyə sırıyır, özü də partiyanın ”beşinci başqanı” elan edir (?!). Absurddur! Absurd və ayıb!

Hələ bu harasdır? Daim özünü ”birinci” kimi göstərmək marağına sahib olan İsa Qəmbər Müsavatın başqanlığından gedişini ”ilk nümunə” kimi ictimai rəyə dürtüşdürməyə çalışarkən unudub ki, ona qədər müxalifətin bir partiyası, daha dəqiq desək, bir partiyasının sədri digər müxalifət partiyalarına nümunə göstərib - AMİP və onun sədri Etibar Məmmədov.

1992-ci ildə Azərbaycan Milli İstiqlal Partiyasını yaradan Etibar Məmmədov 2004-cü ildə partiya sədrliyindən istefaya gedib-cəmi 12 il bu siyasi təşkilata rəhbərlik edib. İsa Qəmbər isə unudub ki, özünü ”nümunə” kimi göstərməzdən əvvəl Etibar Məmmədovdan icazə almasını unudub. Misal üçün, o, ən azından Müsavatın eks-başqanı kimi AMİP-in eks-sədrinə zəng edərək soruşa bilərdi ki, ”icazə ver, özümü səndən əvvələ salıb və nümunə kimi göstərim”. Nə danışırsınız, elə şeymi olar? Kimkim, İsa Qəmbər gedib Etibar Məmmədovdan icazə alsın? Özünə nə gəlib ki, heç nəyə baxmadan irəli dürtülüb ”nümunə” ola bilər zatən...

Hə, qaldı ki onun Müsavat partiyasının başqanlıq postuna qayıtmaq niyyətinin olmamasına, bu da bir oyundur, əslində - minnət-sünnət oyunu. Sən demə, millət işini-gücünü atıb gözləyirmiş ki, ayə, görəsən, İsa öz ”müqəddəs” qəlyanını püskürdə-püskürdə bir də nə vaxt siyasi arenada zühur edəcək, nə zaman yenidən gəlib başqanlıq kreslosunda oturacaq, özündənmüştəbeh pozaları, fikirləri ilə yekə-yekə məsələlər haqqında danışacaq? ”İsa Qəmbər, sən Allah qayıt, zühur et” ”siyasi duaları” ilə.

Üstəlik, bu gün Müsavatda fəaliyyət göstərən şöbələrdən biri də gizli saxlanılır, adı da ”İsanın zühuru” şöbəsidir! Deyilənə görə, orada sırf məxfilikdir, şöbənin açarı da, məhz sabiq başqanın saxtakarlıq yolları ilə öz yerinə təyin etdirdiyi Arif Hacılının cibişdanındadır. Olmaya birdən müsavatçıların beyinləri qızıb onu devirsələr, dərhal həmin açar İsa Qəmbərə veriləcək və o da partiyanın qərargahında ”zühur” edəcək. Vallah nə desən olar, xüsusilə Müsavatda!

# Denis Kislov: "Narkotik ticarəti İran üçün gəlir mənbələrindən biridir"

## Politoloq: "Yaxın illərdə Ermənistan mövcudluğunu itirə və ərazi olaraq regional dövlətlər arasında bölünə bilər"

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*




**Ukrayna-İsrail politoloqu, Yaxın Şərq və Şərqi Avropa üzrə ekspert Denis Kislov "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda baş verən hadisələr və gedən proseslər haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Denis, sizcə, Tehranın Bakıya qarşı aqressiv ritorikasının səbəbi nədir?***

- Birincisi, bu məsələyə təktərəfli baxıla bilməz. İnformasiya müharibəsi heç vaxt birtərəfli olmur. Digər tərəfdən, bu müharibədə Tehrandan hücum bu gün daha aqressiv görünür. Və bunun obyektiv səbəbləri var. Tehran, özünü idarə edə bilmədiyi və üstəlik, indi də regional bölgə siyasətinə əhəmiyyətli dərəcədə təsir edə bilmədiyi olduqca narahat bir vəziyyətə salındı. Başqa sözlə, İranın hərəkətləri 44 günlük müharibənin nəticəsi ilə bağlı reflekslərə əsaslanır. Burada başa düşmək vacibdir ki, Tehran üçün Bakının qələbəsi böyük əhəmiyyət kəsb edir. Ötən ilki müharibədən sonra Azərbaycan təkcə çox yüksək sağlam ambisiyalara malik bir dövlət deyil, həm də bölgədəki müəyyən hadisələrə əhəmiyyətli dərəcədə təsir edən bir dövlətə çevrildi. Xüsusilə də, keçən il Qarabağ müharibəsi nəticəsində yaranan Bakı-Moskva-Ankara məntiqi üçbucağı kontekstində. Bu da Tehranı qıcıqlandırır.

Tarixən İran rəngarəng və müsbət ritorikasına baxmayaraq, zehni olaraq Azərbaycan və Ermənistan ərazilərini özününkü hesab edir. Aydındır ki, bu mövzunun İran tərəfindən açıqlanacağı ehtimalı azdır, ancaq özünü daha da parlaq şəkildə göstərəcəkdir. Liderlik iddiaları baxımından bölgədəki dominant bir rola sahib olduğunu nəzərə alsaq, İranın hakim elitasının orta radikallıqdan mühafizəkar radikallığa keçdiyini nəzərə alsaq, bu məsələ daha da ağırlaşacaq.

Bu kontekstdə, həm regional, həm də dünya miqyasında İslam dünyasının əsas oyunçularından biri olan Türkiyə faktorunu düşünmək olar. Bu gün 2 belə oyunçu var: İran və Türkiyə və onlar çox çətin rəqabət içərisindədirlər. İranla Azərbaycan arasında münasibətlərin kəskinləşməsinə İran və Türkiyə arasında İslam dünyasını inhisara almaq cəhdi mübarizəsi kontekstində baxmaq olar. Türkiyədə şərti olaraq dünyəvi İslamdır, İranda şiə məzhəbi hakimdir.

Bu kontekstdə Bakının son zamanlar bölgədə iqtisadi, siyasi, hərbi və strateji tərəfdaş olaraq Ankaranı seçməsi İran üçün əhəmiyyətli bir mövzuya çevrildi. İrəvan da öz növbəsində Tehran üçün eyni tərəfdaşa çevrilir, bütün göstəricilər bunu göstərir. Ən azından bununla bağlı birbaşa müraciətlər var. Bəlkə də yüksək səviyyəli və rəsmi sənədlər yoxdur, amma buna baxmayaraq hər şey buna doğru gedir. Ancaq burada yenə də Rusiyanın simasında müəyyən bir arbitr faktoru var. Və regional şahmat taxtasında Moskva, Tehran və Ankara arasındakı münasibətlərin eniş-yoxuşu həm də Bakı ilə əlaqəlidir.



Tehranın Bakı və Ankaranın liderliyini rədd etməsini tamamlayan növbəti məqam Azərbaycanla İsrail arasındakı münasibətlərdir. Bütün bunlar İran üçün müəyyən bir dissonans yaradır.



Başqa bir vacib məqam geosiyasi yolun dəyişməsidir. Və bu, yalnız Bakı, Ankara və Tehran, bir də Moskva arasındakı münasibətlərə deyil, hər bir oyunçunun bir hakim rolunda Moskvanı qazanmaq cəhdlərinə aiddir və bu da Qərb dünyası tərəfindən qəbul edilmir. Qərb yarımkürədən Tehrana açıq dəstək var. Bu Fransa, Almaniya, İsveçrədəki müəyyən maliyyə dairələri şəklində bir ittifaqdır. Ümumiyyətlə, bunlar Avropa İttifaqı ilə əlaqəli ölkələrdir. Düşünürəm ki, hamı Yaxın Şərqin kapitalının Qərbin siyasətində hansı rol oynadığını və İranda nüvə proqramının həyata keçirilməsi də daxil olmaqla hansı maraqlara malik olduğunu bilir. Və bu məsələlər də öz mənfi təsirlərini verir və bu da region ölkələrinə təsir edir.



***- Azərbaycan Prezidenti İlham Əliyev son açıqlamalarının birində vurğuladı ki, 30 il ərzində Ermənistan İranla əlbir olaraq keçmiş işğal olunmuş Azərbaycan ərazilərindən Avropaya narkotik ticarəti həyata keçirmək üçün istifadə edib. Buna necə münasibət bildirərdiniz?***



- Tehran və qismən SEPAH üçün narkotik ticarəti bu və ya digər dərəcədə gəlirli bir sahədir, lakin əsas vəsait axınından uzaqdır. SEPAH və ümumiyyətlə, İran üçün narkotik ticarəti haqqında danışarkən, "ayaqların haradan böyüdüyünü" anlamaq lazımdır. Bu ittiham, 2017-ci ildə, daha sonra SEPAH-ı narkotik qaçaqmalçılığı və narkotik alverinin formalaşmasında günahlandıran Donald Trampın milli təhlükəsizlik müşavirinin bəyanatı ilə irəli sürüldü. Söhbət Əfqanıstandan narkotik qaçaqmalçılığından gedirdi.

Digər tərəfdən, CIA (MKİred.) və Pentaqonun əlləri ilə Əfqanıstanda logistika da daxil olmaqla bütün narkotik istehsalına nəzarət edən ABŞ idi. Buna görə də, SEPAH-dan bəhs edərkən, burada başqa kimlərin iştirak etdiyini anlamalıyıq. SEPAH əslində, ABŞ tərəfindən Əfqanıstandan qanunsuz narkotiklərin Avropa bazarlarına daxil olmasının əsas maneəçisi idi.

Yəni, adətən olduğu kimi, narkotik maddələr bəzi satıcılardan ələ keçirilərək dövlət nəzarətinə verildi, bəziləri utilizasiya üçün getdi, bəziləri isə yalnız öz maraqları nəzərə alınmaqla və öz kanalları vasitəsi ilə yenidən dövriyyəyə və satışa çıxarıldı. SEPAH Əfqanıstandan Cənubi Qafqaz vasitəsilə Ukraynaya gedən və sonra Şərqi Avropaya gedən narkotik ticarəti üçün bir növ "müdafiə" ilə məşğul idi.

Həqiqətən də, İran və SEPAH əldə etdikləri ümumi gəlirin 20-27 faizini narkotik ticarətindən toplayır. Bu gün bu, ümumiyyətlə, Əfqanıstan və ya Pakistandan Mərkəzi Avropaya yönəldilmiş narkotik trafikidir və bu trafik Latın Amerikası ölkələri tərəfindən dəstəklənir. Ancaq yenə də bu, birmənalı və ya gəlirlərinin yeganə maddəsi deyil. Bu, Həmas, Hizbullah və digər yarımdövlət qruplarının saxlanması üçün vasitələrdən biridir.

***- Sizcə, İranla qarşıdurma necə bitəcək? Düşmənçiliyə gələ bilərmi?***

- Bu gün bu vəziyyətin bir növ düşmənçiliklə başa çatmasının ilkin şərtlərini görmürəm. Qarşıdurma böyük ehtimalla diplomatik müstəvidə artacaq. Bəzi sərhəd-logistika təmas nöqtələrində qarşıdurma mümkündür, amma başqa heç nə yoxdur. Hər hansı bir uzun sürən qarşıdurmanın hər zaman qısamüddətli hərbi əməliyyatların nəticəsi ola biləcəyini bilmək lazımdır. Ancaq vəziyyət davam edərsə, bu, mümkündür. Gərginlik uzun müddət davam edərsə, sərhəd bölgələrində bir növ atışmaların baş vermə ehtimalı var. Xüsusilə belə bir vəziyyət Naxçıvanla sərhəddə ola bilər. Dəhliz İran və Ermənistanın nəzarətindən çıxsa, orada hərbi qarşıdurma baş verə bilər. Yəni, çox uzaq bir fərziyyədə bu mümkündür, amma bu gün real ön şərtlər yoxdur. Bu gün daxili elektoratını, əhalisini pompalamaq üçün istifadə olunan informasiya və diplomatik sahədə daha çox gərginlik var.

***- İran sülh müqaviləsi imzalamaqda, sərhədləri müəyyənləşdirməkdə, kommunikasiyaların bərpasında Ermənistana təzyiq göstərə bilərmi?***

- Birmənalı şəkildə Tehran bu məsələdə Ermənistana təzyiq edəcək. Bu baxımdan Ermənistana bu gün də təsir edir. Ancaq burada İranın vassalına xüsusi təsiri olan bir növ dəhşətli hegemon olduğunu birmənalı şəkildə nəzərdən keçirmək mümkün deyil. Lakin belə baxmaq olmaz ki, İran burada birmənalı hegemondur və öz vassalına hər cür təzyiq etmək imkanına malikdir. İrəvan üçün bu, Moskvadan fərqli olaraq söykənə biləcəyi bir yer ola bilər. Hamımız yaxşı başa düşürük ki, İrəvan üçün, ümumiyyətlə, Rusiya Federasiyasının mövcudluğu arzu olunandır. Və bu baxımdan İran da Ermənistan üçün çox önəmlidir.

Bundan başqa, Tehran da İrəvan kimi Rusiyanın mövcudluğunun onu xilas etməyəcəyini, əksinə, Bakının maraqlarına töhfə verəcəyini yaxşı bilir. Qorxularım var ki, yaxın illərdə Ermənistan mövcudluğunu itirə və ərazi olaraq regional dövlətlər arasında bölünə bilər.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

SƏS

20 oktyabr
2021-ci il



# Azərbaycanda boşanma sayı niyə artır?

**Bu il Azərbaycanda qeydə alınan nikah və boşanma hallarının sayı açıqlanıb. Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunur ki, 2021-ci ilin yanvar-avqust aylarında qeydiyyat şöbələri tərəfindən 36 063 nikaha daxilolma və 11 313 boşanma halları qeydə alınıb.**

Qeyd olunub ki, əhalinin hər 1000 nəfərinə 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 3,5-dən 5,4-ə, boşanmaların sayı isə 1,4-dən 1,7-yə qədər artıb.

# "Mançester Siti" Sterlinqə qiymət qoydu: 80 milyon avro!



İngiltərənin "Mançester Siti" klubunun futbolçusu Rahim Sterlinq yaxın vaxtlarda klubunu dəyişə bilər. Qol.az "Marca"ya istinadən xəbər verir ki, İngiltərə klubunun rəhbərliyi 26 yaşlı oyunçuya qiymət qoyub. Mançester təmsilçisi ingilis yarımmüdafiəçini 80 milyon avro satmaq istəyir.

Bildirilib ki, "Barselona" Sterlinqi almaq fikrindədir, lakin futbolçunun yüksək qiyməti buna mane olur. Qeyd edək ki, Rahimin "Mançester Siti" ilə hazırkı müqaviləsi 2023-cü ilin yayında başa çatacaq.

## Balayı düşərgəsində kabus baş verib

**Birinci Dünya müharibəsində bomba partladıqdan sonra Ukraynada bir cütlüyün balayı qanlı bir yerə çevrilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, dünya müharibələrindən sonra bombalar tez-tez Avropada tapılır.**

İngiltərədə yaşayan ukraynalı cütlük Lidiya Makarçuk və Norbert Varqa balayını Ukraynanın Karpat dağlarında meşədə düşərgədə keçirmək istəyiblər. Macarıstanla sərhəddəki bu bölgəyə ikisi uşaq olmaqla 10 dostdan ibarət qrupla gediblər. Düşərgənin ilk gecəsində böyük bir tonqal yandırıblar. Varqa kamerasını almaq üçün çadıra getdi və sonra böyük bir səs gəldi. Düşərgə yerin altında qalan bombanın səbəbindən partlamışdı. Gəlinin qardaşı Miroslav və bir dostu hadisə yerində ölüb.



Gəlin Makarçuk ağır yaralanıb. Kimsəsiz bir yerdə olduqları üçün komandaların gəlməsi 1,5 saat çəkib. Düşərgənin altında Birinci Dünya Müharibəsindən bomba olduğu və atəş nəticəsində partladığı təyin olunub. Gəlinin müalicəsi üçün ianə kampaniyasına start verilib və 35 min dollar toplanıb.

***Rüqəyya Orucova***

# Rusiyalı həkim açıqladı: Sintetik vitaminlər ölümcül təhlükəlidir!

**Sintetik vitaminlər qəbul etmək bədəndə geridönməz dəyişikliklərə səbəb ola bilər. Bunu həkim Aleksandr Myasnikov "Rusiya 1" telekanalının efirində deyib. Televiziya həkimi süni C vitamininin bütün orqanlarda daş meydana gəlməsinə səbəb olduğunu söyləyib.**



Buna görə Myasnikov həmkarı, tibb elmləri doktoru Aleksey Sobolevin sintetik vitaminlər haqqında fikrini şərh edib. Sobolev süni maddələrin bədəndə cəmi on faiz ududluğunu hesab edir. Buna görə vitaminləri təbii mənbələrdən - mövcud qidalardan almaq daha yaxşıdır.

Myasnikov həmkarı ilə razılaşıb və vitamin preparatlarının nəzarətsiz alınmasının qaçılmaz olaraq sağlamlıq problemlərinə səbəb olacağı ilə bağlı xəbərdarlıq edib. Məsələn, bu, böyrəkdə daş yaranmasını artırır.

# Buyurun, ömrü uzadan 6 vərdiş!



**Sadə gündəlik məşğuliyyətlər ümumi haləhvalı yaxşılaşdıra və ömrün uzunluğuna müəyyən təsir göstərə bilər.**

### Müəyyən vaxtda yuxuya getmək

Yuxusuzluq bir sıra xəstəliklərin riskini artırır, lakin insan normadan çox yatanda depressiya və ömrünüzə mənfi təsir edə biləcək digər xəstəliklərə meyillilik ilə əlaqələndirilir. Mütəxəssislər hesab edir ki, hər gecə yeddi-səkkiz saat yatmaq lazımdır.

### Meditasiya

Xroniki stres təkcə ruhi sağlamlığa deyil, həm də fiziki sağlamlığa mənfi təsir edir, insan ömrünü qısaldır. Meditasiya və nəfəs məşğələləri bədəndəki kortizol (stres hormonu) səviyyəsini azaldır, psixoloji vəziyyəti yaxşılaşdırır və immun sistemini gücləndirir. Bu vərdişin müntəzəm olaraq əldə edilməsi ümumi stres və narahatlıq səviyyələrini azaldacaq və nəticədə ömrü uzatmağa kömək edəcək.

### Aktiv fəaliyyət

Uzun müddət sağlam yaşamaq arzusunda olan insanlar üçün aktiv qalmaq həyati əhəmiyyət kəsb edir - buna hətta həftədə ən azı beş dəfə hər gün 15-30 dəqiqəlik orta fiziki məşq etməklə (məsələn, parkda gəzmək) nail olmaq olar.

### İstifadə edilən spirtli içkilərə nəzarət edilməsi

Mütəmadi olaraq spirtli içkilərin qəbul edilməsi ürək xəstəlikləri riskini artıra, qan təzyiqini yüksəldə, çəki almağa kömək edə və bir çox başqa problemə səbəb ola bilər. Spirtli içkilərin qəbul edilməsinə nəzarət etmək vərdişi - uzun ömür üçün ən vacib vərdişlərdən biridir.

### Çay və qəhvə qəbul etmək

Mütəxəssis qeyd edir ki, bu içkiləri normal miqdarda qəbul etmək vərdişi xroniki xəstəlik riskinin aşağı olması ilə əlaqədardır. C.Gerrininin sözlərinə görə yaşıl çay, sağlamlıq üçün ən faydalı ılıq içkilərdən biridir və xərçəng xəstəliyinin bəzi növlərinə, diabetə və ürək xəstəliklərinə daha az meyillilik onun qəbul edilməsi ilə əlaqələndirilir. Qəhvə içmək 2-ci növ diabetin, ürək xəstəlikləri, altsheymer və parkinson xəstəlikləri riskini azaldır.

### İncimən

Fərqli həyat şəraitini fəlsəfi nöqteyi-nəzərdən qəbul etmək, incimə və kin saxlamamaq vərdişi, son nəticədə insanın ömrünü uzada bilər. Xroniki qəzəb ürək xəstəlikləri, ağciyərin sağlamlığının pozulması və insultlar kimi bir çox xəstəliklərlə əlaqədardır. Bağışlayaraq və incikliklərdən xilas olaraq, biz narahatçılığımızı azaldır və qan təzyiqimizi yaxşılaşdırırıq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**